QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 116 (5836) **2 iyul** 2019-cu il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# "Azərbaycan ilə UNESKO arasında əməkdaşlıq uğurla inkişaf edir"

*Prezident İlham Əliyev UNESKO-nun Baş direktoru Odre Azulenin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib*



Səh 2

6

**Azərbaycan və Özbəkistan arasında münasibətlər yüksək səviyyədədir**



6

**Azərbaycan KİV rəhbərlərinin Moskva şəhərinə səfər proqramı başlayıb**



7

**"Qazax" sərhəd dəstəsinin yeni hərbi hissə kompleksi istifadəyə verilib**



# "Azərbaycan ilə UNESKO arasında əməkdaşlıq uğurla inkişaf edir"

*Prezident İlham Əliyev UNESKO-nun Baş direktoru Odre Azulenin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib*



***İyunun 30-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev UNESKO-nun Baş direktoru xanım Odre Azulenin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib. AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan ilə UNESKO arasında əməkdaşlığın uğurla inkişaf etdiyi bildirildi, UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasının Bakıda keçirilməsinin əhəmiyyətinə toxunuldu, dünyada bu tədbirə böyük marağın olduğu qeyd edildi.***

UNESKO-nun Baş direktoru xanım Odre Azule Azərbaycanın mədəniyyətlərarası dialoqa verdiyi töhfəni yüksək qiymətləndirdi və ölkəmizdə mədəni və tarixi irsin qorunması və təbliği istiqamətində görülən işlərin əhəmiyyətini qeyd etdi. Xanım Odre Azule Azərbaycanın Elm Muzeyinin təsis edilməsi təşəbbüsünə UNESKO-nun dəstək verdiyini bildirdi.

Mədəniyyətlərarası dialoqa toxunan dövlətimizin başçısı "Bakı Prosesi"nin artıq böyük qlobal platformaya çevrildiyini və müxtəlif beynəlxalq təşkilatlar tərəfindən dəstəkləndiyini dedi. Prezident İlham Əliyev bildirdi ki, ölkəmizdə mədəni və təbii irsin qorunması gündəlikdə duran ən önəmli məsələlərdən biridir. Söhbət zamanı Azərbaycan ilə UNESKO arasında elm və təhsil sahələrində əməkdaşlığın inkişafından məmnunluq ifadə edildi, bu sahədə UNESKO-nun xətti ilə həyata keçirilən layihələrin önəmi vurğulandı.

# "Azərbaycanda UNESKO-nun tərəfdaşlığı ilə bir sıra möhtəşəm beynəlxalq forumlar təşkil edilib"

*Birinci vitse-prezident Mehriban Əliyeva UNESKO-nun Baş direktoru xanım Odre Azule ilə görüşüb*





***İyunun 30-da Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, UNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyeva Azərbaycanda səfərdə olan UNESKO-nun Baş direktoru xanım Odre Azule ilə görüşüb.***

AZƏRTAC xəbər verir ki, Birinci vitse-prezident Mehriban Əliyeva UNESKO-nun Ümumdünya İrs Komitəsinin Bakıda keçirilən 43-cü sessiyasında iştirak etmək üçün ölkəmizə gəldiyinə görə UNESKO-nun Baş direktoru Odre Azuleyə minnətdarlığını bildirdi. Təşkilatın Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasının Bakıda keçirilməsinin əhəmiyyətini vurğulayan UNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyeva Odre Azulenin həmin tədbirə diqqətinin bu sessiyanın uğurla keçəcəyinə mühüm töhfə verəcəyinə əminliyini ifadə etdi. Mehriban Əliyeva Azərbaycan ilə UNESKO arasında əməkdaşlığın bir çox sahələrdə - mədəniyyət, elm, təhsil və digər istiqamətlərdə çox uğurla inkişaf etdiyini məmnunluqla vurğuladı. "Bütün bu illərdə birgə keçirilən toplantılarda, böyük beynəlxalq tədbirlərdə UNESKO ailəsinin üzvü olmaq mənim üçün çox xoşdur, böyük şərəfdir", - deyən Mehriban Əliyeva bu il əməkdaşlığımızın 27-ci ildönümünün qeyd ediləcəyini bildirdi, dünya mədəniyyət irsinin qorunmasında gələcəkdə də çox uğurlu əməkdaşlıq quracağımıza əminliyini ifadə etdi. UNESKO-nun xoşməramlı səfiri onu da bildirdi ki, ölkəmiz müstəqilliyini bərpa etdikdən sonra mədəni, tarixi və dini irsin qorunması Azərbaycanın dövlət siyasətinin əsas prioritetlərindən birinə çevrilib və son illərdə Azərbaycanda UNESKO-nun tərəfdaşlığı ilə bir sıra möhtəşəm beynəlxalq forumlar, tədbirlər uğurla təşkil edilib. UNESKO-nun Baş direktorunun ölkəmizə səfərinin uğurlu keçəcəyinə əminliyini ifadə edən Mehriban Əliyeva ümidvar olduğunu bildirdi ki, bu səfər çərçivəsində Odre Azule Azərbaycanla, paytaxtımızla daha yaxından tanış olacaq və xalqımızın qonaqpərvərliyini hiss edəcək.

UNESKO-nun Baş direktoru Odre Azule Parisdə təşkilatın baş qərargahında Mehriban Əliyeva ilə görüşünü xatırladı və UNESKO üçün ən mühüm tədbir olan Ümumdünya İrs Komitəsinin növbəti sessiyasının üzv dövlətlər arasında məhz Azərbaycanda keçirilməsindən məmnunluğunu bildirdi. UNESKO-nun Baş direktoru növbəti günlərdə bütün ölkələrin nümayəndələrinin Bakıda bir araya gələrək dünya irsinin qorunması üçün görülməsi vacib olan tədbirləri müzakirə edəcəklərini vurğuladı. Odre Azule UNESKO üçün mühüm əhəmiyyət kəsb edən və 2500-ə yaxın iştirakçının qatılacağı bu sessiyanın Azərbaycanda keçirilməsinə görə təşəkkürünü bildirdi. Sonra Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva və UNESKO-nun Baş direktoru Odre Azule birgə nahar etdilər.

# Dövlət Təhlükəsizliyi Xidmətinin N saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət qulluqçularının ehtiyata buraxılması mərasimi keçirilib

***İyulun 1-də Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin N saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması mərasimi keçirilib.***

AZƏRTAC xəbər verir ki, mərasimdə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva iştirak edib.

"Azərbaycan Respublikası vətəndaşlarının 2019-cu il iyulun 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında" Prezident İlham Əliyevin 2019-cu il 3 iyun tarixli Sərəncamına uyğun olaraq Dövlət Təhlükəsizliyi Xidmətinin N saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması mərasimi keçirilib.

Mərasim əsgərlərin meydana gəlməsi ilə başladı. Sonra döyüş bayrağı meydana gətirildi. Xidməti vəzifələrin icrası zamanı fərqlənən əsgərlərə Fəxri Fərman, xatirə hədiyyələri və valideynlərinə təşəkkür məktubları təqdim olundu.

Bu günün Dövlət Təhlükəsizliyi Xidmətinin Əlahiddə Alayının şəxsi heyəti üçün əlamətdar gün olduğunu deyən Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi, general-leytenant Əli Nağıyev həqiqi hərbi xidməti başa vuran əsgərləri və onların valideynlərini təbrik etdi, hərbi xidmət zamanı əsgərlərin hərbin sirlərinə dərindən yiyələndiklərini vurğuladı. Prezident, Ali Baş Komandan İlham Əliyevin diqqət və qayğısı sayəsində Silahlı Qüvvələrin bütün qoşun növlərində olduğu kimi, bu hərbi hissədə də xidmətin yüksək tələblər səviyyəsində təşkili üçün hərtərəfli şəraitin yaradıldığını bildirdi.

Dövlət Təhlükəsizliyi Xidmətinin Ulu Öndərin yadigarı olmaqla Azərbaycan dövlətçiliyinin qorunması üçün xüsusi önəm daşıdığını bildirən xidmət rəisi Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu daxili və xarici siyasət nəticəsində əldə olunan nailiyyətlərdən danışdı. Qeyd etdi ki, Ali Baş Komandan İlham Əliyevin əmri ilə Azərbaycan Ordusu işğal altındakı torpaqların azad edilməsi uğrunda döyüşə hər an hazırdır.

Sonra dövlət himni səsləndirildi. Daha sonra şəxsi heyət təntənəli marşla tribunanın önündən keçdi.

Bu gün Azərbaycan Ordusunda xidmət edən hər bir gənc böyük şərəf hissi ilə hərbin sirlərinə yiyələnir. Vətəni müdafiə etmək kimi şərəfli və məsuliyyətli işin öhdəsindən layiqincə gələn əsgərlərimiz dünyanın ən qüdrətli ordularından birində xidmətləri ilə qürur duyurlar. Bu gün Azərbaycan Ordusu müasir silah-sursat təminatına və maddi-texniki bazasına görə dünyada lider yerlərdən birini tutur. Amma ən əsas məsələ müstəqil ölkəmizin ordusunda xidmət edən hərbçilərdə olan Vətənə bağlılıq, Vətən sevgisi və ruh yüksəkliyidir. Üzərinə düşən vəzifələri lazımi səviyyədə icra etməyə qadir olan Azərbaycan əsgəri doğma torpağını, xalqını və dövlətini sonsuz məhəbbətlə sevir və Vətən uğrunda canından belə keçməyə hazırdır. Sonra Birinci vitse-prezident Mehriban Əliyeva tədbirdə iştirak edən valideynlərlə görüşdü, onlarla söhbət etdi.

















## Rəsmi xronika

Azərbaycan Prezidenti İlham Əliyev "Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 10 dekabr tarixli 387 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə Fərman imzalayıb.

***

Azərbaycan Prezidenti İlham Əliyev "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 13 iyun tarixli 1610-VQD nömrəli Qanununun tətbiqi və "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının 2015-ci il 15 may tarixli 1284-IVQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 14 iyul tarixli 566 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında Fərman imzalayıb.

səs

www.sesqazeti.az

facebook Ses Media Holding

2 iyul 2019-cu il

# Azərbaycan beynəlxalq səviyyədə dünya irsinin müdafiəsi və mühafizəsinə dəstək verir

## *Paytaxt Bakı YUNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü Sessiyasına uğurla ev sahibliyi edir*

***Son illər Azərbaycan çox vacib beynəlxalq tədbirlərə ev sahibliyi edərək, qlobal və regional sabitliyə töhfələrini verir. Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu, Dünya Dini Liderlərinin Forumu, BMT-nin Sivilizasiyalar Alyansının Qlobal Forumu və onlarla belə tədbirləri keçirməklə, dünyanın diqqətini özünü cəlb edən Azərbaycan bu və ya digər tədbirlərlə xalqlar və dövlətlər arasında əməkdaşlığa xidmət edir. Müasir dünyanı narahat edən məsələlər də, ölkəmizdə müzakirə olunur. Dünyada baş verən qlobal dəyişikliklərlə bağlı yaranmış çətinliklərin aradan qaldırılması yollarının müzakirəsi baxımından keçirilən tədbirlərdə ölkələrin təmsilçiləri və fərqli fikirli insanlar arasında daha böyük anlaşmanı təmin etmək kimi böyük bir missiya həyata keçirilir. Qütbləşən dünyada əhatəli və sülhsevər cəmiyyətlərin necə qurulması yolları müzakirə edilir. Təbii ki, hər məsələnin mərkəzində insan amili dayanır və bəşəriyyətdə olan insanların rifahın yüksək olması vacib məsələlərdəndir. Sülhün qorunması, dayanıqlı inkişaf, ədalətli bölüşmə, regional rifah və inkişafda uçurumun azaldılması önəmli hədəflər sırasındadır və belə mövzuların müzakirə ediləcək, mühüm qərarların qəbul edilməsi vacibdir.***







### "BİZ FƏAL TƏMSİLÇİLİK VƏ VERDİYİMİZ TÖHFƏLƏRLƏ UNESKO-NUN İŞİNDƏ UĞURLA İŞTİRAK EDİRİK"

Bu gün paytaxtımızda keçirilən UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyası da Azərbaycanın dövlət siyasətinin əsas istiqamətlərindən biri olaraq millimənəvi dəyərlərin, tarixi-mədəni irsin qorunması və təbliği ilə yanaşı, beynəlxalq səviyyədə dünya irsinin müdafiəsi və mühafizəsinə dəstək verməkdir. Bu məqsədlə ölkəmiz müstəqilliyini bərpa etdiyi vaxtdan UNESKO ilə sıx əməkdaşlıq münasibətləri qurub və təşkilatın fəaliyyətinə öz töhfəsini verib. 2013-cü ildə UNESKO-nun Qeyri-Maddi Mədəni İrsin Qorunması üzrə Hökumətlərarası Komitəsinin 8-ci Sessiyasına uğurla ev sahibliyi edən Azərbaycanda eyni müvəffəqiyyətlə hər iki ildən bir UNESKO-nun rəsmi tərəfdaşlığı ilə Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu keçirilir. Ümumdünya İrs Komitəsinin 42-ci sessiyasında qəbul edilmiş qərara əsasən, Azərbaycan bu mötəbər qurumun növbəti sessiyasına ev sahibliyi etmək hüququ əldə edib. Azərbaycan üçün mühüm əhəmiyyətə malik belə bir qərarın qəbul olunması ölkəmizin UNESKO ilə tərəfdaşlıq münasibətlərinin yüksək səviyyədə inkişaf etdiyini göstərir.





Prezident İlham Əliyev iyunun 30-dan iyulun 10-dək davam edəcək sessiyanın Bakıda layiqincə keçirilməsini təmin etmək məqsədilə müvafiq Sərəncam imzalayıb. Bununla da, UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü Sessiyasının Bakıda yüksək səviyyədə keçirilməsi təşkil olunub.

Sessiyanın açılışında çıxış edən Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, UNESKO-nun Xoşməramlı Səfiri Mehriban Əliyeva ölkəmizlə bu təşkilat arasında ötən 27 ildə bir sıra sahələrdə uğurlu əlaqələrin qurulduğunu bildirib: "Biz fəal təmsilçilik və verdiyimiz töhfələrlə UNESKO-nun işində uğurla iştirak edirik" deyən Mehriban Əliyeva ümumdünya və milli irsin qorunmasının Azərbaycanda dövlət siyasətinin mərkəzində dayandığını vurğulayıb. Son 5 ildə ölkəmizdə 40 tarixi abidənin bərpa edildiyini və yenidən qurulduğunu deyən Mehriban Əliyeva bununla da, milli mədəniyyətimizin zənginləşdiyini diqqətə çatdırıb.

### AZƏRBAYCAN - YUNESKO ƏLAQƏLƏRİ İNKİŞAFDADIR

Azərbaycanın maddi irs nümunələri olan "İçəri Şəhər, Qız Qalası və Şirvanşahlar Saray Kompleksi", "Qobustan Qaya Sənəti Mədəni Landşaftı" və s. YUNESKO-nun Ümumdünya İrs Siyahısına daxil edilib. Eyni zamanda, Azərbaycanın bir neçə qeyri-maddi mədəni irs nümunəsi YUNESKO-nun Qeyri-maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil olunub. "Azərbaycan Muğamı", "Azərbaycan Aşıq Sənəti", "Novruz", "Ənənəvi Azərbaycan Xalçaçılıq Sənəti", "Tar və Onun İfaçılıq Sənəti", "Ənənəvi Kəlağayı sənəti və simvolizmi, qadın ipək baş örtüklərinin hazırlanması və istifadə olunması", "Lahıcın misgərlik sənəti" və s. YUNESKO-nun Qeyri-maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edilmişdir.

Bir çox tədbirlər Orxon-Yenisey abidələrinin oxunmasının 100 illik yubileyi, Məhəmməd Füzulinin anadan olmasının 500 illik yubileyi, "Kitabi-Dədə Qorqud" Dastanının 1300 illik yubileyi, Nəsirəddin Tusinin anadan olmasının 800 illik yubileyi, Mirzə Kazımbəyin 200 illik yubileyi, Akademik Yusif Məmmədəliyevin 100 illik yubileyi, Lətif Kərimovun 100 illik yubileyi, Üzeyir Hacıbəylinin "Leyli və Məcnun" operasının ilk tamaşasının 100 illik yubileyi, Mir Cəlal Paşayevin 100 illik yubileyi, Nəsiminin ölümünün 600-cü ildönümü və s. YUNESKO çərçivəsində qeyd edilib.

Ardı Səh. 5

# Azərbaycan beynəlxalq səviyyədə dünya irsinin müdafiəsi və mühafizəsinə dəstək verir

## *Paytaxt Bakı YUNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü Sessiyasına uğurla ev sahibliyi edir*

Əvvəli Səh. 4

Bütün bunlar Azərbaycan - YUNESKO əlaqələrinin yüksələn bir xətlə inkişafda olduğunu göstərir.

Bütün bunlarla yanaşı, Heydər Əliyev Fondu və YUNESKO arasında əməkdaşlıq çərçivəsində imzalanmış sazişlər də qeyd olunmalıdır. Heydər Əliyev Fondunda "BMT-nin Təhsil, Elm və Mədəniyyət Məsələləri Təşkilatı - YUNESKO, Azərbaycan Hökuməti və Heydər Əliyev Fondu arasında ölkəmizdə peşə təhsilinin inkişafını nəzərdə tutan layihənin icra planına dair" Saziş, "Azərbaycan hökuməti ilə YUNESKO arasında təhsil, elm, mədəniyyət və kommunikasiya sahələrində əməkdaşlıq üzrə Çərçivə Sazişi" və s. imzalanmışdır.



### "SÜLH MƏDƏNİYYƏTİNİN TOXUMLARI DİALOQ VƏ QARŞILIQLI HÖRMƏTLƏ CÜCƏRƏ BİLƏR"



Mehriban Əliyeva çıxışında Ermənistan tərəfindən torpaqlarımızın 20 faizinin işğal edildiyini, 1 milyon insanın qaçqın və məcburi köçkünə çevrildiyini, yüzlərlə tarixi və memarlıq abidəsinin dağıdıldığını da vurğulayaraq "Sülh mədəniyyətinin toxumları dialoq və qarşılıqlı hörmətlə cücərə bilər" deyib.

Belə möhtəşəm tədbirlərin ölkəmizdə təşkili YUNESKO ilə Azərbaycan arasında olan dostluq körpüsünün məntiqi nəticəsidir. Bu körpünü möhkəmləndirən Mehriban xanım Əliyevanın fəaliyyəti sayəsində, Azərbaycanla YUNESKO arasında əməkdaşlıq genişlənmişdir. Əbəs deyil ki, bəşəriyyətin maddi və qeyri-maddi mədəni irsinin populyarlaşmasındakı işinə sədaqətinə, mədəniyyətlərarası dialoqun inkişafı naminə göstərdiyi səylərə, mədəni müxtəlifliyin möhkəmləndirilmənsinə sanballı töhfələrinə görə, YUNESKO-nun Xoşməramlı Səfiri Mehriban xanım Əliyevaya YUNESKO-nun baş direktoru tərəfindən "Qızıl Motsart" medalı təqdim olunub. İrina Bokovanın Onun ünvanına söylədiyi "Siz YUNESKO-nun humanist dəyərlərinin əsl bayraqdarısınız" ifadəsi Mehriban Əliyevanın bu təşkilatla olan əməkdaşlığının bariz göstəricisidir.



Bakı sessiyasında UNESCO-nun Ümumdünya İrsi Siyahısına daxil edilmək üçün üzv dövlətlər tərəfindən təqdim olunmuş 36 namizəd fayl nəzərdən keçiriləcək. Namizədliyi irəli sürülmüş faylların 28-i mədəni, 6-sı təbiət, 2-si qarışıq (təbiət və mədəni) abidələr sırasına daxildir. Sessiyalarda, ilk olaraq, siyahı üzrə təbiət obyektləri, daha sonra mədəni obyektlərlə bağlı nominasiyalar müzakirə ediləcək. Tədbir çərçivəsində 50-yə yaxın paralel tədbir və sərgi keçiriləcək. Sessiyanın gündəliyinə 2018-2019-cu illər üçün nəzərdə tutulmuş büdcənin icrası barədə hesabatın dinlənilməsi, 2020-2021-ci illər üçün Dünya İrsi Fondunun büdcə təklifi ilə bağlı müzakirələr, məşvərət orqanlarının hesabatlarının dinlənilməsi, Dünya İrsi Siyahısına daxil edilmək üçün namizədliyi irəli sürülmüş faylların nominasiya prosesi və siyahıya daxil edilmiş abidələrin qorunması ilə bağlı müzakirələrin aparılması daxildir.



Qeyd edək ki, 30 iyun - 10 iyul tarixlərində keçiriləcək UNESCO-nun Ümumdünya İrs Komitəsinin 43-cü Sessiyasında xarici ölkələrin və beynəlxalq təşkilatların yüksək səviyyəli rəsmiləri, ümumilikdə, 180-dək ölkədən 2500-dən çox nümayəndə iştirak edir.

***Zümrüd BAYRAMOVA***

## Azərbaycan və Özbəkistan arasında münasibətlər yüksək səviyyədədir



Azərbaycan və Özbəkistan arasında münasibətlər yüksək səviyyədədir. Ölkələrimiz arasında sıx dostluq əlaqələri var. İnanırıq ki, bu münasibətlər bundan sonra da davam edəcək.

AZƏRTAC xəbər verir ki, bu sözləri Azərbaycanın Baş Nazirinin müavini Əli Əhmədov Özbəkistanın Baş Nazirinin müavini Aziz Abduxakimov ilə görüşündə deyib. Azərbaycanın ev sahibliyi etdiyi beynəlxalq tədbirlərə toxunan Əli Əhmədov ölkəmizin iqtisadi sahədə əldə etdiyi nailiyyətlərdən də danışıb.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsindən bəhs edən Baş Nazirin müavini Özbəkistanın bu məsələdə Azərbaycanın yanında olmasından məmnunluğunu ifadə edib. Aziz Abduxakimov da, öz növbəsində, ölkələrimiz arasındakı əlaqələrin inkişafından danışıb. O bildirib ki, Azərbaycan beynəlxalq tədbirlərə uğurla ev sahibliyi edir. UNESKO-nun Ümumdünya İrs Komitəsinin Bakıda keçirilən 43-cü sessiyası buna bariz nümunədir.

## UNESKO-nun Ümumdünya İrs Komitəsinin Bakı Bəyannaməsi qəbul olunub



UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyası çərçivəsində Bakı Bəyannaməsi qəbul olunub. Mədəniyyət naziri Əbülfəs Qarayev bəyannamənin dünyada mədəni irsin qorunmasına xidmət etdiyini deyib. Nazir bildirib ki, sənəd dünya ictimaiyyətinin diqqətini mədəni irsin qorunmasına yönəltmək məqsədi daşıyır. Qeyd edək ki, UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasına xarici ölkələrin və beynəlxalq təşkilatların yüksək səviyyəli rəsmiləri, ümumilikdə 180-dək ölkədən 2500-dən çox iştirakçı qatılıb.

## Anna Zeçner: "Ümumdünya İrs Komitəsinin Bakı sessiyası bir sıra qərarların qəbulu ilə yadda qalacaq"



Azərbaycan daha bir mötəbər beynəlxalq tədbirin ev sahibidir. Bu, ölkənizin qlobal miqyaslı tədbirləri yüksək səviyyədə təşkil etmək imkanlarını bir daha sübut edir. Əminəm ki, bu sessiya da uğurla keçəcək. Bu sözləri AZƏRTAC-a müsahibəsində UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasında iştirak edən macarıstanlı nümayəndə Anna Zeçner deyib.

Azərbaycanın dünyada mədəni mirasın qorunmasına həssas münasibət nümayiş etdirdiyini söyləyən A.Zaçner builki sessiyada mədəni irsin qorunması, dayanıqlı inkişaf, innovasiya və digər mövzularda maraqlı müzakirələrin aparılacağını qeyd edib.

O, həmçinin UNESKO-nun Ümumdünya İrs Komitəsinin 42-ci sessiyasının məruzəçisi kimi çıxış etdiyini bildirib. Deyib ki, ötən sessiyada 225 qərar qəbul edilib və 19 mədəniyyət nümunəsi UNESKO-nun Ümumdünya İrs Siyahısına salınıb. Bununla da UNESKO-nun siyahısına daxil olan mədəniyyət nümunələrinin sayı 1092-yə çatıb. Bildirib ki, Bəhreyndə 2975 nümayəndənin qatıldığı 42-ci sessiyada 157 konservasiya olunmuş abidənin durumu barədə məlumat verilib və 54 irs nümunəsi təhlükədə olan mədəniyyət abidələrinin siyahısına daxil edilib. Anna Zeçner Bakı sessiyasının da maddi-mədəni irsin qorunması sahəsində bir sıra qərarların qəbulu ilə yadda qalacağına əminliyini ifadə edib.

## Nabil Al Xancari: "Azərbaycan qlobal əhəmiyyətli mötəbər tədbirlərə uğurla ev sahibliyi edir"



Azərbaycan qlobal əhəmiyyətli mötəbər tədbirlərə uğurla ev sahibliyi edir və UNESKO-nun Bakıda keçirilən sessiyasına dünyanın 180-dək ölkəsindən 3 minə yaxın nümayəndənin qatılması bunun daha bir təsdiqidir. Bu fikirləri AZƏRTAC-a müsahibəsində UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasının iştirakçısı, Omanın regional bələdiyyələr və su mənbələri üzrə nazirliyin idarəsinin baş direktorunun müavini Nabil Al Xancari səsləndirib. Tədbirin yüksək səviyyədə təşkil olunduğunu vurğulayan Nabil Al Xancari deyib: "Bizim ölkəmiz də təhlükədə olan 5 tarixi və mədəni abidənin Ümumdünya İrs Siyahısına salınmasını təklif edib. Düşünürəm ki, dünyanın bir çox ölkələrinin tarixi və mədəni irsin qorunub saxlanılması sahəsində ən yaxşı təcrübələrini belə mühüm platformada bölüşməsi çox əhəmiyyətlidir".

## Azərbaycan KİV rəhbərlərinin Moskva şəhərinə səfər proqramı başlayıb



Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun (KİVDF) təşkilatçılığı ilə respublikanın aparıcı KİV təmsilçilərindən ibarət 12 nəfərlik nümayəndə heyətinin Rusiya Federasiyasının paytaxtı Moskva şəhərinə səfər proqramı başlayıb. SİA-nın verdiyi məlumata görə, nümayəndə heyətinin Rusiyanın jurnalist təşkilatları və aparıcı KİV-lərin redaksiyalarında görüşləri nəzərdə tutulub.



Səfər proqramı iyulun 1-də başlayıb və ilk görüş Azərbaycan Respublikasının Rusiya Federasiyasındakı səfirliyində keçirilib. Səfir Polad Bülbüloğlu nümayəndə heyətini salamlayaraq, Azəbaycanın aparıcı KİV qurumlarının Rusiya Federasiyasına səfər proqramını müsbət dəyərləndirdiyini bildirib. O, iki ölkənin KİV qurumlarının əlaqələrinin gücləndirilməsinin hər iki ölkənin maraqlarına xidmət etdiyini vurğulayıb. Səfir Azərbaycan və Rusiyanın müştərək maraqlarına xidmət edən proqramlar barədə də məlumat verib. Bu proqramların reallaşması üçün medianın dəstəyinin mühüm əhəmiyyət daşıdığını diqqətə çatdırıb və Azərbaycan media təmsilçilərinin Moskvaya səfərlərinin bu yöndə ciddi önəm daşıdığını vurğulayıb.



KİVDF-nin icraçı direktoru, səfər qrupunun rəhbəri Vüqar Səfərli KİV təmsilçilərinin Moskvaya səfərinin məqsədi, həmçinin, Azərbaycanda KİV-in durumu və KİVDF-nin fəaliyyəti barədə məlumat verib. Vüqar Səfərli Rusiya - Azərbaycan media təmsilçilərinin sıx təmaslarının zəruri olduğunu, bunun üçün həm Rusiya, həm də Azərbaycan dövlətinin dəstəyinin önəmli olduğunu vurğulayıb. Səfir Polad Bülbüloğlu iki ölkə KİV-lərinin təmaslarının gücləndirilməsi üçün səlahiyyətləri çərçivəsində bütün dəstəyi verməyə hazır olduqlarını qeyd edib.

Nümayəndə heyətinin növbəti görüşü "İTAR-TASS" İnformasiya Agentliyində keçirilib. Nümayəndə heyətinin üzvləri öncə Agentliyin iş mühiti ilə tanış olublar. Daha sonra Baş redaktor Maksim Filimonovla görüş keçirilib. Səmimi diskussiya şəraitində keçirilən görüşdə tərəflər qarşılıqlı maraqları və əlaqələrin inkişafı üçün fikirlərini çatdırıblar.

Məlumat üçün bildirək ki, nümayəndə heyətinin tərkibinə Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun icraçı direktoru Vüqar Səfərli, "Xalq qəzeti"nin baş redaktoru, KİVDF-nin Müşahidə şurasının sədri Həsən Həsənov, "Trend" İnformasiya Agentliyinin baş direktoru İlqar Hüseynov, "İki Sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə, "Səs" qəzetinin baş redaktoru Bəhruz Quliyev, Jurnalistlərin Həmkarlar İttifaqının sədri, Mətbuat Şurasının sədr müavini Müşfiq Ələsgərli, "Bakı xəbər" qəzetinin baş redaktoru Aydın Quliyev, "Bakinskiy Raboçiy" qəzetinin baş redaktoru Rəhman Hacıyev, Azərbaycan Televiziya və Radio Verilişləri QSC-nin sədr müavini Rəşad Nəsirov, "AzərTAC" İnformasiya Agentliyinin redaksiya müdir müavini Əziz Məmmədov, "Novoye vremya" qəzetinin baş redaktoru Şakir Ağayev, "Kaspiy" qəzetinin baş redaktoru İlqar Hüseynov daxildir. Görüşlər davam edir. Səfər proqramı iyulun 4-dək davam edəcək.

## Zakir Həsənov Belarusa səfər edəcək



Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Belarus Respublikasının Müdafiə naziri general-leytenant Andrey Ravkovun dəvəti ilə iyulun 2-də Minsk şəhərinə yola düşəcək. Müdafiə Nazirliyindən SİA-ya verilən məlumata görə, səfər çərçivəsində Azərbaycan nümayəndə heyəti Belarus Respublikasının alman-faşist işğalçılarından azad olunmasının 75-ci ildönümü və Müstəqillik Gününə həsr olunmuş təntənəli tədbirlərdə iştirak edəcək.

Müdafiə nazirinin həmçinin bu ölkənin hərbi-siyasi rəhbərliyi ilə görüşləri və Azərbaycanın Milli Qəhrəmanı mayor Anatoli Davidoviçin ailə üzvlərini ziyarət etməsi nəzərdə tutulub. Qeyd edək ki, iyulun 3-də Minsk şəhərində keçiriləcək hərbi paradda Azərbaycan Ordusunun hərbi qulluqçuları da iştirak edəcək.

# "Qazax" sərhəd dəstəsinin yeni hərbi hissə kompleksi istifadəyə verilib

***Ermənistan ilə dövlət sərhədinin Qazax və Ağstafa rayonlarının ərazisindən keçən hissəsindəki təmas xəttində dövlət sərhədlərinin müdafiəsi və mühafizəsi infrastrukturunun yaradılması tədbirləri sürətlə davam edir. DSX-dan SİA-ya verilən məlumata görə, sərhədçilər üçün ən müasir tələblərə cavab verən sərhəd döyüş məntəqələri, digər hərbi obyektlər qısa müddət ərzində tikilərək istifadəyə verilir.***

İyun ayının 28-də Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının "Qazax" sərhəd dəstəsinin xidməti ərazisində yeni hərbi hissə kompleksi istifadəyə verilmişdir. Bu münasibətlə təşkil olunmuş təntənəli mərasimdə çıxış edən Dövlət Sərhəd Xidmətinin rəisi general-polkovnik Elçin Quliyev Azərbaycan sərhədçisinin dövlətçiliyimizin və sərhədlərimizin keşiyində ayıqsayıq dayandığını, Dövlət Sərhəd Xidmətinin bütün şəxsi heyəti üçün Azərbaycan Respublikasının Prezidenti Silahlı, Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin tapşırıqlarını icra etməyin böyük şərəf və məsuliyyət olduğunu bildirmiş, Ali Baş Komandanın qayğısı sayəsində Dövlət Sərhəd Xidmətinin bütün hərbi hissə və bölmələrində şəxsi heyət üçün yüksək xidməti və məişət şəraitinin yaradılmasını qeyd etmişdir. Ermənistan ilə dövlət sərhədinin Qazax və Ağstafa rayonları ərazisindən keçən hissəsinin Dövlət Sərhəd Xidməti tərəfindən mühafizəyə götürülməsinin dövlət sərhədlərinin bütövlüyünün təmin edilməsi istiqamətində mühüm addım olması xüsusi vurğulanmış, Azərbaycan sərhədçilərinin işğalda olan torpaqlarımızın azad olunmasına öz ciddi töhfələrini verməyə hər zaman hazır olması bildirilmişdir.

Tədbirdə iştirak edən Qazax rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov sərhədçiləri təbrik edərək onlara şərəfli xidmətlərində uğurlar arzulamışdır. Tədbir zamanı xidmətdə yüksək nəticələr göstərmiş bir qrup hərbi qulluqçu təltifləndirilmişdir. Açılışı bildirən rəmzi lent kəsildikdən sonra hərbi hissəyə baxış keçirilmişdir. 5 hektar ərazidə yerləşən hərbi hissədə 14,6 min m2 sahədə inşaat işləri aparılmış, xidməti-döyüş fəaliyyətinin yüksək səviyyədə təşkili və sərhədçilərin istirahəti üçün hər cür şərait yaradılmışdır. Yeni hərbi hissədə qərargah və idarəetmə bölmələri üçün binalar kompleksi, müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuların kazarma binaları, hərbi qulluqçular və ailə üzvləri üçün 84 xidməti mənzil, tibb məntəqəsi, texniki təyinatlı binalar, su anbarı inşa olunmuşdur. Təntənəli mərasimin bədii hissəsində Dövlət Sərhəd Xidmətinin nümunəvi hərbi orkestrinin, rəqs ansamblının, vokal-instrumental qrupunun ifaları, şəxsi heyət qarşısında çıxışları hərbi qulluqçular tərəfindən böyük rəğbətlə qarşılanmışdır.

Tədbirin sonunda Dövlət Sərhəd Xidmətinin rəhbər heyəti və qonaqlar şəxsi heyətlə birlikdə nahar etmişlər. Səfər çərçivəsində təmas xəttində yerləşən sərhəd döyüş məntəqələrində xidməti-döyüş fəaliyyətinin vəziyyəti yoxlanılmışdır.












# Prezident İlham Əliyevin qərarları bütün dünya üçün sosial inqilab nümunəsidir

*Müsahibimiz Milli Məclisin deputatı Nəsib MƏHƏMMƏLİYEVDİR*

***- Nəsib müəllim, bildiyimiz kimi, ötən dövr ərzində əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində dövlət başçısı tərəfindən mühüm Fərman və sərəncamlar imzalanıb. Bütün bunlar, konkret olaraq, faktlarda özünün əksini necə tapır?***

-Ümumiyyətlə, Prezident İlham Əliyev 2003-cü ildə fəaliyyətə başladığı dövrdən apardığı siyasətin mərkəzində Azərbaycan vətəndaşının durduğunu bəyan etdi və ötən dövr ərzindəki fəaliyyəti ilə bunu dəfələrlə əyani şəkildə sübut etdi. Çoxsaylı fərman və sərəncamların imzalanması aparılan siyasətin nəticəsidir ki, bu gün Azərbaycan dünyada hərtərəfli inkişaf etmiş və güclü bir dövlətə çevrilmişdir.

Konkret olaraq, son dövrlər əhalinin sosial müdafiəsi ilə bağlı islahatların nəticəsində şəhid ailələrinə birdəfəlik müavinətlərin verilməsi, şəhid ailələrinə, Əfqanıstan veteranlarına verilən müavinətlərin 300 manata çatdırılması, uzun illər yataqxanalarda yaşayan məcburi köçkünlərə yeni mənzillərin verilməsi, tələbələrin təqaüdünün artırılması, yüz minlərlə insanın pensiya təminatının yaxşılaşdırılması, əhalini narahat edən, əsas problemlərdən olan çoxmənzilli evlərin qeydiyyata alınması və bir çox tədbirlər görülmüşdür.

Tam məsuliyyətlə demək olar ki, sosial müdafiə sahəsi ilə bağlı aparılan siyasətin müsbət nəticəsini hər bir Azərbaycan vətəndaşı, real olaraq, öz həyatında hiss edir.

***- İyunun 18-də Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə minimum əməkhaqqı yenə də artırıldı, eləcə də müxtəlif kateqoriyalar üzrə çalışanların maaşlarında***



***artım baş verdi. Bu barədə nə deyə bilərsiniz?***

- Azərbaycan Prezidenti İlham Əliyevin 18 iyun tarixli sərəncamlarına müvafiq olaraq, minimum əmək haqqı 250 manata çatdırıldı. Eləcə də, dövlət qulluğunun müxtəlif sahələrində çalışan insanların, hüquq-mühafizə orqanlarının əməkdaşlarının əmək haqları artırıldı. Bu sərəncamların çox böyük əhəmiyyəti vardır.

Düşünürəm ki, əhalinin sosial müdafiəsinin gücləndirilməsi ilə yanaşı, dövlətimizin müsbət imicinin formalaşmasına da, bilavasitə xidmət edir. Belə ki, bu göstəricilərə görə, Azərbaycan MDB-də ön sıralara çıxmışdır və demək olar ki, inqilabi xarakter daşıyır.

***- Nəsib müəllim, Azərbaycan vətəndaşlarının böyük sevincinə səbəb olmuş daha bir hadisə də fiziki şəxslərin problemli kreditlərilə bağlı oldu. Ekspertlərin fikrincə, fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı tədbirlərin görülməsi üçün dünyada analoqu olmayan bir qərar verən Prezident İlham Əliyev sosial inqilab nümunəsi təqdim etmiş oldu. Sizin bu barədə fikirlərinizi bilmək istərdik...***

- Fiziki şəxslərin problemli kreditlərinin dövlət tərəfindən ödənilməsi, ümumiyyətlə dünyada rast gəlinməyən bir məsələdir. Belə bir humanist addımı atmaqla, Prezident İlham Əliyev xalqın problemlərinə, məişət qayğılarına nə qədər diqqətlə yanaşdığını bir daha sübut etmiş oldu. Bir çox ölkələrə nümunə olacaq bir addım atdı. Bu da, təbii olaraq, əhali tərəfindən çox böyük razılıq hissi ilə qarşılandı. Azərbaycan xalqı da öz qədirbilənliyini göstərərək, belə addımları yüksək qiymətləndirir və hər zaman olduğu kimi, öz prezidentini gördüyü işlərə görə daim dəstəkləyir.

***- Nəsib müəllim, sonda Azərbaycanın nailiyyətlərinə, sosial sahədə atılan mühüm addımlara rəğmən müəyyən dairələr ölkəmizə qarşı qarayaxma kampaniyası aparır. Buna münasibətiniz necədir?***

- Bu qarayaxma kompaniyasını aparanlara mənim münasibətim, birmənalı tərzdə, mənfidir. Bunlar bir neçə qrupa bölünür. Azərbaycanın iqtisadi-siyasi inkişafını arzulamayan, bu və ya digər məsələlərdə maraqları olan güclər, düşmən Ermənistan və erməni diasporu və düşmən dəyirmanına su tökməyə çalışan özünü müxalifət adlandıran radikal qüvvələr.

Fakt ondan ibarətdir ki, Azərbaycan inkişaf etdikcə, belə qüvvələr daha da aqressivləşirlər. Amma xalqımız müdrik xalqdır, dövlətimiz kifayət qədər güclüdür. Belə kampaniyalar heç biri dövlətçiliyimizə və milli birliyimizə təsir edə bilməz.

**RƏFİQƏ KAMALQIZI**

## Praşanta Mandavala: "Azərbaycanın Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasına ev sahibliyi etməsi təqdirəlayiqdir"



UNESKO-nun ən mühüm tədbirlərindən biri olan Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasına Azərbaycanın ev sahibliyi etməsi təqdirəlayiqdir. Sessiyaya dünyanın 180-dək ölkəsindən 3 minə yaxın nümayəndə qatılıb. İştirakçı dövlətlərin tarixi və mədəni irsinin qorunub saxlanılması və ən yaxşı təcrübələrin bölüşülməsi baxımından bu tədbirin rolu əvəzedilməzdir.

Bu fikirləri AZƏRTAC-a müsahibəsində UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasının iştirakçısı, Şri-Lankanın Arxeoloji tədqiqatlar təşkilatının baş direktoru Praşanta Mandavala deyib. Şri-Lankanın nümayəndəsi tədbirin yüksək səviyyədə təşkilinə və göstərilən qonaqpərvərliyə görə Azərbaycan hökumətinə dərin minnətdarlığını bildirib.

"UNESKO-nun bu tədbirində iştirakçı ölkələrin nümayəndələrinin hesabatları peşəkarlıqla hazırlanıb. Bu sənədlər bizim ölkəmizdə də təhlükədə olan bir çox tarixi və mədəniyyət abidələrinin mühafizəsinin qiymətləndirilməsi və UNESKO-nun Ümumdünya İrs Siyahısına salınması baxımından çox dəyərlidir," - deyə Praşanta Mandavala qeyd edib.

## Müdafiə Nazirliyi müddətdən artıq həqiqi hərbi xidmət keçmək istəyənlərə müraciət edib



Azərbaycan Ordusunda müddətdən artıq həqiqi hərbi xidmətə könüllü daxil olmaq arzusunda olan, ən azı ümumi orta təhsilli, qanunla müəyyənləşdirilmiş müddətli həqiqi hərbi xidmətini başa vurmuş, 28 yaşınadək hərbi vəzifəlilər avqustun 1-dən 20-dək müvafiq sənədlərlə birliklərin, qoşun növlərinin və hərbi hissələrin qərargahlarında fəaliyyət göstərən qəbul komissiyalarına müraciət edə bilərlər.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, "Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının hazırlığı kursu"na qəbul olunmaq üçün müraciət etmiş vətəndaşlar qəbul komissiyaları tərəfindən hərbi xidmətə yararlılıq dərəcələrinin müəyyən edilməsi məqsədi ilə nazirliyin tibb müəssisələrinə göndərilir. Hərbi Həkim Komissiyalarının qərarına əsasən hərbi xidmətə yararlı hesab edilmiş şəxslər qəbul imtahanlarına buraxılırlar. Fiziki hazırlığı, ümumi bilik səviyyəsi, düşünmə qabiliyyəti, peşə maraqları, ünsiyyət qurmaq, liderlik və qərar qəbuletmə bacarıqları, həmçinin fərdi-psixoloji və digər keyfiyyətlərinin öyrənilməsi məqsədilə keçirilən imtahanları müvəffəqiyyətlə vermiş namizədlər kursa qəbul edilirlər.

Kursu müvəffəqiyyətlə başa vuran şəxslərlə üç il müddətinə bağlaşma imzalanacaq və onlar ixtisaslarına uyğun müvafiq vəzifələrə təyin olunacaq.

Namizədlər qəbul komissiyalarına müraciət edərkən kursa qəbul olunmaq barədə ərizə, tərcümeyi-hal və digər sənədlərini (sənədlərin siyahısını Müdafiə Nazirliyinin saytından əldə etmək mümkündür) təqdim etməlidirlər. Müraciətlər avqustun 1-dən 20-dək hər gün (bazar günləri istisna olmaqla) saat 09.00-dan 18.00-dək birliklərin, qoşun növlərinin və hərbi hissələrin qərargahlarında fəaliyyət göstərən müvafiq komissiyalarda qəbul olunur. Müddətdən artıq həqiqi hərbi xidmətdən "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin 156-cı maddəsinin "e" bəndinə (xidməti uyğunsuzluğa görə) müvafiq olaraq, ehtiyata buraxılmış hərbi qulluqçuların və məhkumluğunun ödənilməsindən asılı olmayaraq məhkum edilmiş hərbi vəzifəlilərin kursa qəbul üçün müraciət etmələri xahiş olunur.

## "Azərbaycanda tarixi və mədəniyyət abidələrinin qorunmasına xüsusi diqqət və qayğı göstərilir"

Azərbaycanın UNESKO-nun mötəbər tədbirinə ev sahibliyi etməsi dövlətinin tarixi və mədəniyyət abidələrinin qorunmasına göstərdiyi xüsusi diqqət və qayğının nəticəsidir. Bu



fikri AZƏRTAC-a müsahibəsində UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasına qatılan Mali Respublikasının Mədəniyyət nazirliyinin yanında mədəni irsin qorunması üzrə idarənin direktoru Moulaye Koulibali deyib. "İlk dəfədir ki, Azərbaycanda belə bir qlobal əhəmiyyətli tədbirdə iştirak edirəm. Azərbaycanın beynəlxalq tədbirlərə uğurla ev sahibliyi etməsi barədə məlumatlı idik. İndi isə bunun canlı şahidi olduq. Dünyanın 180-dək ölkəsindən 3 minə yaxın nümayəndəsini bir araya toplayan Ümumdünya İrs Komitəsinin 43-cü sessiyası çox yüksək səviyyədə təşkil olunub," - deyə M.Koulibali vurğulayıb.

## "Azərbaycanın UNESKO ilə əməkdaşlığı çox yüksək səviyyədədir"



"Azərbaycan ilə UNESKO arasında əməkdaşlığın bir çox sahələrdə - mədəniyyət, elm, təhsil və digər sahələrdə uğurla davam etdirilir. Bu əlaqələrin yaradılmasında, inkişaf etdirilməsində və belə yüksək səviyyəyə çatmasında Azərbaycanın Birinci vitse-prezidenti, UNESKO-nun xoşməramlı səfiri, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın müstəsna xidmətləri vardır. Onun bu sahədəki fəaliyyəti nəticəsində Azərbaycanla UNESKO arasındakı əməkdaşlıq yüksək səviyyəyə çatmışdır. Bakıda öz işinə başlayan Ümumdünya İrs Komitəsinin 43-cü sesiyası buna bariz nümunədir". Bunu SİA-ya açıqlamasında millət vəkili Rauf Əliyev deyib. R.Əliyev xatırladıb ki, UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasının açılış mərasimi keçirilib. Sessiyada dünyanın 180-dan çox ölkəsindən 2500-dən artıq nümayyəndəsi iştirak edir. Nümayəndə heyətlərinin tərkibində sesiyanın işinə nazirlər, müxtəlif təşkilatların baş direktorları, beynəlxalq qurumların Azərbaycandakı təmsilçiləri və səfirləri, Azərbaycan hökumətinin üzvləri qatılıblar: "Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, UNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əlyeva mərasimdə çıxış edib. Mehriban xanım Əliyeva çıxışında bildirmişdir ki, ölkəmiz müstəqilliyini bərpa etdikdən sonra mədəni, tarixi və dini irsin qorunması Azərbaycanın dövlət siyasətində əsas prioritetlərindən birinə çevrilib və son illərdə Azərbaycan UNESKO-nun tərəfdaşlığı ilə bir sıra möhtəşəm layihələrə forumlara, tədbirlərə ev sahibliyi edib. Dünya Mədəniyyət Mirasları Syahısı UNESKO-nun Ümumdünya İrs Komitəsi tərəfindən təyin olunmuş və yerləşdikləri ölkələrin dövlət orqanları tərəfindən zəmanət verilmiş, bütün dünya üçün əhəmiyyətli bir dəyər daşıdığı qəbul edilən təbii və mədəni abidələrin siyahısıdır. Dünya Mədəniyyət Mirasları siyahısının yaradılmasında məqsəd bütün insanlara məxsus olan dəyərlərin qorunmasında beynəlxalq əməkdaşlığı həyata keçirtməkdir. Müntəzəm olaraq yenilənən siyahıya 2004-cü ildən etibarən 134 ölkəyə aid 788 abidə daxil edilmişdir. Bunlardan 617-si mədəniyyət, 154-ü təbii, 23-ü isə mədəni və təbii abidələrdir. Azərbaycandan bu siyahıya Bakı şəhərinin tarixi incisi olan "İçərişəhər" Dövlət, Tarix-Memarlıq Qoruğu, Şirvanşahlar Sarayı Kompleksi, Qız Qalası və Qobustan Milli Tarix-Bədii Qoroğu daxil edilmişdir. Bu il ölkəmiz tərəfindən Şəki Xan Sarayı ilə birgə şəhərin tarixi mərkəzinin UNESKO-nun Ümumdünya İrs Siyahısına salınması təklif edilib. Bundan əlavə, müvəqqəti siyahıya Azərbaycandan ümumilikdə 22, o cümlədən 5 təbii və 17 mədəni abidə daxil edilmişdir ki, gələcəkdə bunların da daimi siyahıya salınmasına baxılacaqdır".

# Ölkə iqtisadiyyatında inkişafın yeni mərhələsi - son 6 ay

***2019-cu ilin 6 ayını arxada qoyduq. Bu müddətə nəzər saldıqda cari ilin əvvəlindən ölkəmizin həyatında mühüm hadisələrin, Azərbaycanın inkişafına, insanlarımızın həyat səviyyəsinin daha da yaxşılaşdırılmasına xidmət edən müsbət hadisələr baş verdiyini görməmək mümkün deyil. Azərbaycan Cənubi Qafqazda sabitlik, əmin-amanlıq adası olmaqla bu ilin 6 ayında da ölkəmizin multikulturalizm və tolerantlıq ənənələrini yaşadan, beynəlxalq miqyaslı tədbirlərə ən yüksək səviyyədə ev sahibliyi edən ölkə kimi nüfuzu daha da artıb, siyasi baxımdan dünya dövlətləri, beynəlxalq təşkilatlarla münasibətləri bir qədər də yaxşılaşıb.***

Bütün bunlar əlbəttə ki, Azərbaycanın cari ilin 6 ayında beynəlxalq aləmdə mövqelərinin daha da möhkəmlənməsinə xidmət edib. Əldə edilən hər bir uğurun arxasında güclü iqtisadiyyata malik olduğumuzu da unutmamalıyıq. Bu baxımdan əminliklə deyə bilərik ki, cari ilin 6 ayı ölkəmiz üçün iqtisadi göstəricilərinə görə də uğurlu il olub.



## Azərbaycan iqtisadiyyatının son 6 ayda əldə etdikləri...



Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Tahir Mirkişili saytımıza açıqlamasında bildirib ki, 2019-cu ilin 6 ayına nəzər yetirdikdə ilin əvvəlindən Vergi Məcəllərinə edilmiş dəyişikliklər və vergi orqanlarının yeni yanaşma metodlarının müsbət nəticələr verdiyini görmək mümkündür: “Yanvarın 1-dən qeyri-dövlət və qeyri-neft-qaz sahəsində çalışan insanların əməkhaqqından tutulan vergi dərəcəsinin 0 faizə endirilməsi öz nəticəsini verir. Ötən il 90 min əmək müqaviləsi bağlandığı halda, bu ilin təkcə ilk rübündə bu say 66 mindən çox olub. Bundan başqa cari ildə sahibkarlıq sahəsində yoxlamaların dayandırılması ilə bağlı qanunvericilik aktının 2021-ci ilədək uzadılması də mühüm addımdır. Görülən tədbirlər, xüsusilə sahibkarlıq sahəsində yoxlamaların yumşaldılması “Doing Business” reytinqində Azərbaycanın birdən-birə 32 pillə irəliləməsinə şərait yaradıb”.

## Vergi islahatları xüsusi yer tutur

Vergi Məcəlləsinə dəyişikliklərin iqtisadi rəqəmlərə müsbət təsir göstərdiyini dilə gətirən komitə üzvü vurğulayıb ki, dəyişikliklərin müsbət nəticələri özünü əsasən əmək müqavilələrinin rəsmiləşdirilməsi, vergidən yayınma hallarının azalması, vergiyə cəlb olunan dövriyyənin artması istiqamətində göstərib: “Əməkhaqqının leqallaşdırılması istiqamətində verginin 0 faizə endirilməsi də öz bəhrəsini verir. Təcrübələr göstərir ki, qeyri-leqal, yeni “kölgə iqtisadiyyatı”nda çalışan sahibkarların fəaliyyət müddəti bir ildən çox olmur. Məcəlləyə dəyişikliklər nəticəsində sahibkarların daha çox leqal işləməsi biznesdə bərabər şəraitin yaradılmasına və haqlı rəqabətə gətirib çıxarır. Sahibkarlara güzəştli kreditlərin, investisiya təşviqi sənədinin verilməsi, kimya-sənaye və qeyri-kimya parklarında iştirakla bağlı vergi güzəştlərixarici investorları növbəti mərhələdə daha çox investisiya yatırmağa cəlb etmək üçün mühüm addımlardır. Bu gün Azərbaycanda 700 minə yaxın sahibkar mövcuddur və bu say ilbəil artır. Məşğul əhalinin muzdlu hissəsini çıxsaq, hər 3 nəfərdən biri sahibkarlıq subyektinə sahibdir. Bu, kifayət qədər böyük göstəricidir. Azərbaycanda ümumi daxili məhsulun 83 faizindən çoxunun özəl sektordan əldə olunması bu sahədə görülən işlərin nəticəsidir. Eyni statistikanı vergi üzrə də görə bilərik. Bütün bunlar göstərir ki, dövlətin stimullaşdırma tədbirləri sahibkarlar üçün maraqlıdır və bunun sayəsində onların əldə etdikləri fayda xərclərindən daha çoxdur”.

## Ölkə iqtisadiyyatında inkişafın yeni mərhələsi

T. Mirkişili qeyd edib ki, cari ilin 6 ayına ümumi nəzərə salsaq, bütövlükdə, ölkə iqtisadiyyatında inkişafın yeni mərhələsinin başladığını söyləyə bilərik: “Bu faktor əhalinin rifah halının yüksəlməsində də özünü ifadə edir. İqtisadi inkişafın məqsədi insanların daha yaxşı yaşamasını təmin etməkdir. Əhaliyə bütün sahələrdə göstərilən xidmətlərin mənbəyində iqtisadiyyatın inkişafı dayanır. İqtisadiyyat inkişaf etməzsə, dövlət varlı olmazsa və gəlir mənbələri olmazsa, bu xidmətlərin təmin edilməsi kifayət qədər çətin olardı. Ona görə də iqtisadiyyatın inkişafı, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sürətli islahatlar Azərbaycanda əldə olunan yeni və əlavə gəlirlərin daha çox vətəndaşa istiqamətlənməsini təmin edir. Biz bunu müşahidə edirik. Bu il ümumi daxili məhsul, sənaye istehsalı, qeyri-neft sənayesində qeydə alınan artımlar dövlət başçısı tərəfindən həyata keçirilən iqtisadi islahatların real nəticələridir”

## 3 milyon insanı əhatə edən iqtisadi uğur



İqtisadçı ekspert Vüqar Bayramovun fikrincə isə 2019-cu ilin ilk yarım ili Azərbaycan iqtisadi tarixinə dərinləşmiş iqtisadi və sosial islahatların həyata keçirilməsi ilə yadda qalıb.

Ekspert söyləyib ki, 2019-cu ilin əvvəlindən etibarən Azərbaycanda dərinləşmiş sosial paketin təqdimatını müşahidə etdiyimizi nəzərə alsaq, sözügedən paketin faktiki olaraq 3milyondan çox vətəndaşı əhatə etməklə bu istiqamətə 3,2 milyard manat vəsaitin ayrılmasına imkan yaratdı: “ Bu da təbii ki aztəminatlı vətəndaşlarımızın sosial vəziyyətinin yaxşılaşdırılması baxımından vacib idi. Bura təkcə, minimum əmək haqqı və pensiya alan vətəndaşlarımız deyil, eləcə də fərqli sektorlar da çalışan vətəndaşlarımızın da sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində mühüm addımlar atıldı. Sosial paketin davamlı şəkildə həyata keçirilməsi və qəbul olunan qərarlara əsasən, 2019-cu ilin sentyabr-oktyabr ayından yeni artımların şahidi olacağıq”.



## Aqrar sektorda həyata keçirilən İSLAHATLAR

V. Bayramov 2019-cu ilin ilk yarım illiyində iqtisadi sahəyə həyata keçirilən islahatlar haqqında danışaraq qeyd edib ki, bu müddət ərzində islahatlar aqrar sektorda da davam etdirilib: “Digər tərəfdən çox vacib məsələlərdən biri də investisiya mühitinin yaxşılaşdırılması idi ki, cari ilin ilk 6 ayında bu istiqamətdə mühüm addımlar atılıb. Sahibkarlıq fəaliyyətinin dövlət tərəfindən dəstəklənməsi vacib addımlardandır. Bu il həm də ölkəmizdə aqrar subsidiyanın verilməsi mexanizminin təkmilləşdirilməsinin də şahidi olduq. Bu, xüsusilə də fermerlərin, ferer təsərrüfatlarının inkişafı və yerli istehsalın genişləndirilməsi baxımından vacib idi”.

Digər məqamlara toxunan ekspert vurğulayıb ki, cari ilin 6 ayında xüsusilə də aqrar sektorda fəaliyyət göstərən sahibkarlar üçün yeni və birbaşa məhsul istehsalına təşviq edən qaydaların tətbiq edilməsi bu sahənin inkişafı üçün mühüm məqamlardandır: “Bu il əslində aqrar sektor daxil olmaqla çox fərqli sektorlarda islahatların davam etdirilməsi müşahidə olunur ki, bu baxımdan 2019-cu ilin birinci yarım ili Azərbaycan üçün birmnalı şəkildə iqtisadi və sosial islahatların dərinləşmməsi ili kimi yadda qalıb”.

## Kənd təsərrüfatında vəziyyət

Kənd Təsərrüfatı Nazirliyi tərəfindən açıqlanan məlumata görə, cari ilin 6 ayı müddətində Azərbaycan ərazisində 1milyon 9 min 139,8 hektar sahədə taxıl əkini aparılıb ki, bunlardan 677 min 793 hektarı buğda, 331 min 346,8 hektarı isə arpa sahəsidir: “Ölkə ərazisində 681 min 181,1 hektar ərazidə taxıl biçini aparılıb, 309 min 621,35 hektar ərazidə arpa, 371 min 559,75 hektar ərazidə buğda biçini başa çatıb. Ümumilikdə isə bu günədək ölkə üzrə 218 min 2105 ton taxıl yığılıb, orta məhsuldarlıq hər hektara 32 sentner təşkil edir”

Qeyd edilib ki, Goranboy ərazisində arpa əkilmiş 13 min 449 hektar sahənin 13 min 339 hektarı artıq biçilib: “Rayonda arpa üzrə məhsuldarlıq 29 s/ha təşkil edir. Göyçay ərazisində arpa əkilmiş 6851 hektar sahənin 6824 hektarı artıq biçilib. Rayonda arpa üzrə məhsuldarlıq 30,5 s/ha təşkil edir. Şəki, Hacıqabul, Ağsu, Ağdaş rayonlarında da arpa biçinində yüksək nəticələr əldə edilib”.

## Sahibkarlara ayrılan VƏSAİT

İqtisadiyyat nazirinin müavini Sahib Məmmədov açıqlamasında bildirib ki, bu ilin əvvəlindən bəri 463 sahibkarın ümumi dəyəri 175,7 milyon manat olan investisiya layihələrinin maliyyələşdirilməsinə 46 milyon manat güzəştli kredit verilib: “Həmin investisiya layihələrin reallaşdırılması 1800-dək iş yerinin yaradılmasına imkan yaradır”.

Nazir müavini həmçinin qeyd edib ki, Gəncə-Qazax iqtisadi rayonunda fəaliyyət göstərən 29 sahibkara heyvandarlıq, bağçılıq, tərəvəzçilik sahələrinin inkişafı üçün 781 min manat güzəştli kredit verilib. Yuxarıda qeyd olunanlara nəzərən bir daha sübut edir ki, ölkəmizdə atılan istənilən addım Azərbaycanın iqtisadi qüdrətini artırması nəticəsində baş verir. Çünki, iqtisadiyyat, o cümlədən qeyri-neft sektoru inkişaf etdikcə, dövlət büdcəsinin gəlirləri artıqca, ölkədə müxtəlif sahələrlə bərabər, sosial sferada da ciddi addımlar atılır.

***Nailə Məhərrəmova***

# Xaricdə manqurt adamlar ki, var...

*Azərbaycana qarşı ən iyrənc metodlarla mübarizə aparan bu insanları gələcəklə bağlı heç bir yaxşı nələrsə gözləmir*

***Son vaxtlar xaricdəki “söyüş qrupu”nun üzvləri biri-birini tənqid və təhqir edən ittihamlar səsləndirirlər. Sual olunur, satmağa və satılmağa adət edən bu ünsür nədən bir-birinə qarşı düşmən mövqedə dayanmalı oldular? Söhbət etdiyimiz müsahiblərimiz xaricdəki mühacirlərin birbirini hədəf seçmələrinin səbəbini ayrılan maliyyə vəsaitindən daha çox yaralanmaq marağının dayandığını bildirdilər.***

Prezident Yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının üzvü, SİM İB-nin sədri Anar Xəlilov: **“Söyüş qrupu”nun üzvləri əxlaqsız və etik qaydalara sığmayan ifadələr işlədirlər”**



- Söyüş kampaniyasında iştirak edən adamlar, ümumiyyətlə, müasir və sivil siyasi mübarizə metodlarından tam uzaq insanlardır. Bunlar, sadəcə olaraq, küçə metodlarından istifadə edilər və əxlaqsız etik qaydalara sığmayan ifadələr işlədirlər. Bəzi “söyüş qrupu”nun üzvlərini birləşdirən anti-Azərbaycan qüvvələrindən aldıqları maliyyə vəsaitidir. Bu şəxslər maliyyədən istifadə etməklə, söyüş kampaniyasını qurur və sosial şəbəkələrdə bunu yaymaqla məşğul olurlar. Sözügedən şəxslərin anormal hərəkətləri hər kəs tərəfindən pislənir. Özünə hörmət edən Azərbaycan vətəndaşı bu cür insanların arxasınca getmir və onları saymırlar. Fakt budur ki, “söyüş qrupu”nun üzvlərinin sosial şəbəkələrdə apardıqları böhtan kampaniyanı hər kəs pisləyir. Onların biri-birini tənqid etməsi və bir-birindən üz çevrməsi və ittihamlar irəli sürmələri, artıq tendensiya halı alıb. Yəni onlar arasında baş verən bu hadisə birinci dəfə deyil. Xaricidəki “söyüş qrupu”nun üzvləri öz aralarında maliyyəni bölüşdürə bilmədikdə, bu cür metodlara əl atırlar və birbirlərini təhqir etməyə başlayırlar. Digər tərəfdən də, “söyüş qrupu”nun üzvlərinin hər biri özünün digərindən ağıllı hesab edir və düşünür ki, digər şəxs bunun dediyinə tabe olmalıdır. Belə olan halda da, onlar arasında dava-dalaşlar başlayır. Bir sözlə, bunlar arasında bu cür dava-dalaşlar hələ çox baş verəcəkdir.

“Həftə İçi” qəzetinin baş redaktoru Sevinc Seyidova: **“Söyüş kampaniyası”nın üzvlərinin bir-birlərinə qarşı ittihamlar səsləndirmələri**



**gözləniləndir “**

- Azərbaycanda bütün sahələr üzrə, son bir ildə, həyata keçirilən dərin islahatlar ölkəmizin demokratik, iqtisadi və sosial sahədə inkişafına yeni təkan verib. İstər məhkəmə-hüquq sahəsində, istərsə də vətəndaşların sosial rifah halının yüksəldilməsi üzrə atılan addımlar Azərbaycana qarşı beynəlxalq səviyyədə əsassız ittihamların çərçivəsini də daraldıb. Azərbaycanı hansısa məsələ ilə bağlı yersiz tənqid hədəfinə çevirmək istəyən xaricdəki qüvvələrin əlində heç bir tutarlı bəhanə qalmayıb. Belə olan halda isə, məhz həmin qüvvələrin maliyyə dəstəyi ilə öz ölkəsinə qarşı çirkin oyun aparan bəzi “soydaşlarımız” ciddi narahatlıq hissi keçirirlər. Çünki ölkəmizin sürətli inkişafı, beynəlxalq nüfuzunun artması, bu şəxslərin ictimai fikrə onsuz da, minimum təsir imkanlarını sıfıra endirmiş olur. Belə olan halda isə, bu kateqoriyadan insanlara maliyyə dəstəyi verən donorları onların pullarını kəsmək və ya tamamilə azaltmaqla hədələyirlər. “Gəlir qaynağı”nın zəifləməsi fonunda xaricdəki “söyüş kampaniyası”nın üzvlərinin bir-birlərinə qarşı ittihamlar səsləndirmələri, bu qarşıdurmanın açıq müstəviyə keçməsi tamamilə normal qarşılanmalıdır. Onlardan hər biri bu vəsaitin, məhz özünə yönəldilməsinə çalışır.

Azərbaycan Gənc Alim, Aspirant və Magistrlər Cəmiyyətinin sədri, fəlsəfə doktoru İlqar Orucov: **“Onlardan istifadə edib, kənara tullayacaqlar “**



- Xaricdəki “söyüş qrup”larının son dövrlərdə bir-birlərini ittiham etmələri, birbirini müəyyən qruplara işləməkdə suçlamaları ilk hadisə deyil, bu kimi qruplar arasında biz, bir qədər bundan öncə də, bu kimi ittihamları görmüşdük. Hətta onlar bunu videogörüntülərlə yayımladılar. Biz bilirik ki, bu qruplar anti-Azərbaycan qüvvələrin əlində istifadə olunan şəxslərdir. Çünki dövlətinə, xalqına və millətinə qarşı bu cür əqidə nümayiş etdirən şəxslər, əslində, mənəvi dəyərlərdən, bütövlükdə, mənəviyyatdan uzaq insanlardır. Bunlar üçün bu mənəviyyatsızlar tayfasını birləşdirən dəyərlər yoxdur. Demək olar ki, bunlar üçün yalnız və yalnız, nəyin bahasına olursa-olsun, pul qazanmaq əsas amildir. Bunların heç intellektual potensialları və savadları da yoxdur. Sadəcə olaraq, bunlar Azərbaycana qarşı müəyyən siyasi qüvvələrin və qrupların əlində alət kimi istifadə olunurlar. Artıq onların bir qrupu istifadə olunub və bu gün, artıq onlardan istifadə etmirlər. Yəni başqa adamlara daha çox maddi yardım edirlər və bu da, onlar arasında ciddi konfliktlərə gətirib çıxarır. Bu insanlar, əslində, bir vaxt hiss edəcəklər ki, onlar heç kimə lazım deyillər. Onları bu gün maliyyələşdirən qüvvələr də az sonra onları kənara tullayacaqlar. İstifadə olunandan sonra onlar üçün artıq çıxış yolu qalmayacaq. Əslində, Azərbaycana qarşı ən iyrənc metodlarla mübarizə aparan bu insanları gələcəklə bağlı heç bir yaxşı nələrsə gözləmir. Vətəninə, dövlətinə qarşı bu cür düşmən mövqedə olmaq, əslində, onların acı aqibətinin çox da uzaqda olmadığını hamı görəcək. Necə ki, Azərbaycan xalqı, birmənalı olaraq, onları rədd edir və xəyanətləri ilə Azərbaycan dövlətinə doğru istiqamətlənən yollarını əbədi olaraq kəsiblər. Bir sözlə, söyüş söyən o manqurtlar ki, var artıq başa düşürlər ki, az sonra heç kimə lazım olmayacaqlar və onları istifadə edib kənara tullayacaqlar. Onlar nəyi itiriblər? Onlar insan üçün ən vacib olan dəyərlərini itiriblər. Onlar dövlətə, Azərbaycana qarşı xəyanət yolu tutublar və artıq Azərbaycanda bu insanlara yer yoxdur.

***GÜLYANƏ***

## İmadəddin Nəsimi: Sənət və təriqət bütövlüyünün fəlsəfi poeziya zirvəsi



AMEA-nın akademik Z.Bünyadov adına Şərqşünaslıq İnstitutunda görkəmli Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyinə həsr olunan növbəti seminar keçirilib.

Tədbiri giriş sözü ilə institutun direktoru, akademik Gövhər Baxşəliyeva açaraq, Prezident İlham Əliyevin “Böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyinin qeyd edilməsi haqqında” 15 noyabr 2018-ci il tarixli və Azərbaycan Respublikasında 2019-cu ilin “Nəsimi İli” elan edilməsi haqqında 11 yanvar 2019-cu il tarixli sərəncamlar imzaladığını xatırladıb. Akademik sözügedən sərəncamlardan irəli gələrək rəhbərlik etdiyi müəssisədə “Nəsimi qrupu”nun yaradıldığını və xüsusi Tədbirlər Planının hazırlandığını bildirib.

Tədbirdə AMEA Rəyasət Heyətinin elmi katibi, filologiya üzrə fəlsəfə doktoru Sərxan Xavərinin “İmadəddin Nəsimi: Sənət və təriqət bütövlüyünün fəlsəfi poeziya zirvəsi” mövzusunda məruzəsi dinlənilib. O, çıxışında bildirib ki, XIV əsr türkdilli Azərbaycan ədəbiyyatının ən görkəmli nümayəndəsi İmadəddin Nəsiminin yaradıcılığında təsəvvüf ideyaları bütöv bir konsepsiya təşkil edir. Digər klassik şairlərimizdən, fərqli olaraq, Nəsiminin, bilavasitə fəlsəfi təlim zəminində yetişdiyini deyən S.Xavəri qeyd edib ki, ədibin şeirlərindəki fəlsəfi ideyaların əsasında hürufilik dayanır: “Nəsimi poeziyası orta əsrlərin məfkurə məhdudiyyətinə qarşı yönəlmiş fikrin üsyanıdır. İstər ayrılıqda Azərbaycan, istərsə də, bütövlükdə, ümumtürk bədii fikri tarixində şair və ictimai mühit konflikti az-az hallarda bu qədər kəskin xarakter alır. Şərqdə, o cümlədən, Azərbaycanda Nəsimidən əvvəl və sonra yaşayıb-yaratmış bütün şairlər “gərdun”, “fələk”, “dövr”, “dünya” və s. ifadələr altında ictimai mühitə qarşı etiraz edirdilər”. S.Xavərinin sözlərinə görə, Nəsiminin varlığı dərketmə modelinin təməlində haqq (Allah), cahan, insan, söz anlayışları dayanır. O, həmçinin, Nəsimi poeziyasında insan obrazının orta əsrlər poetik fikir tarixində ən yüksək zirvəyə qalxdığını söyləyib.

Məruzə dinlənildikdən sonra mövzu ətrafında çıxışlar olub və fikir mübadiləsi aparılıb.

***ZÜMRÜD***

## Türkiyə bu il 2,8 milyard kubmetrdən çox Azərbaycan təbii qazı alıb



Apreldə Türkiyə Azərbaycandan 724 milyon kubmetr təbii qaz idxal edib. Bu barədə Türkiyənin Enerji Bazarını Tənzimləmə Təşkilatı (EPDK) məlumat yayıb. Bildirilir ki, apreldə Türkiyənin Azərbaycandan idxal etdiyi qazın həcmi martla müqayisədə 133 milyon kubmetr artıb. Azərbaycan apreldə Türkiyənin ən çox qaz idxal etdiyi ölkələr sırasında Rusiyadan (1,4 milyard kubmetr) sonra ikinci olub. Yanvarda Türkiyə Azərbaycandan 808 milyon kubmetr, fevralda 683 milyon kubmetr, martda 591 milyon kubmetr, apreldə isə 724 milyon kubmetr təbii qaz idxal edib. Ümumilikdə 4 ayda qardaş ölkənin Azərbaycan qaz idxalı 2 milyard 806 milyon kubmetr təşkil edib. Qeyd edək ki, keçən il Türkiyə Azərbaycandan 7 milyard 527 milyon kubmetr təbii qaz idxal etmişdi.

# Müdafiə Nazirliyi müddətdən artıq həqiqi hərbi xidmət keçmək istəyənlərə müraciət edib

Azərbaycan Ordusunda müddətdən artıq həqiqi hərbi xidmətə könüllü daxil olmaq arzusunda olan, ən azı ümumi orta təhsilli, qanunla müəyyənləşdirilmiş müddətli həqiqi hərbi xidmətini başa vurmuş, 28 yaşınadək hərbi vəzifəlilər avqustun 1-dən 20-dək müvafiq sənədlərlə birliklərin, qoşun növlərinin və hərbi hissələrin qərargahlarında fəaliyyət göstərən qəbul komissiyalarına müraciət edə bilərlər.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, “Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının hazırlığı kursu”na qəbul olunmaq üçün müraciət etmiş vətəndaşlar qəbul komissiyaları tərəfindən hərbi xidmətə yararlılıq dərəcələrinin müəyyən edilməsi məqsədi ilə nazirliyin tibb müəssisələrinə göndərilir. Hərbi Həkim Komissiyalarının qərarına əsasən hərbi xidmətə yararlı hesab edilmiş şəxslər qəbul imtahanlarına buraxılırlar. Fiziki hazırlığı, ümumi bilik səviyyəsi, düşünmə qabiliyyəti, peşə maraqları, ünsiyyət qurmaq, liderlik və qərar qəbuletmə bacarıqları, həmçinin fərdi-psixoloji və digər keyfiyyətlərinin öyrənilməsi məqsədilə keçirilən imtahanları müvəffəqiyyətlə vermiş namizədlər kursa qəbul edilirlər.

Kursu müvəffəqiyyətlə başa vuran şəxslərlə üç il müddətinə bağlaşma imzalanacaq və onlar ixtisaslarına uyğun müvafiq vəzifələrə təyin olunacaq.

Namizədlər qəbul komissiyalarına müraciət edərkən kursa qəbul olunmaq barədə ərizə, tərcümeyi-hal və digər sənədlərini (sənədlərin siyahısını Müdafiə Nazirliyinin saytından əldə etmək mümkündür) təqdim etməlidirlər. Müraciətlər avqustun 1-dən 20-dək hər gün (bazar günləri istisna olmaqla) saat 09.00-dan 18.00-dək birliklərin, qoşun növlərinin və hərbi hissələrin qərargahlarında fəaliyyət göstərən müvafiq komissiyalarda qəbul olunur. Müddətdən artıq həqiqi hərbi xidmətdən “Hərbi xidmətkeçmə haqqında” Əsasnamənin 156-cı maddəsinin “e” bəndinə (xidməti uyğunsuzluğa görə) müvafiq olaraq, ehtiyata buraxılmış hərbi qulluqçuların və məhkumluğunun ödənilməsindən asılı olmayaraq məhkum edilmiş hərbi vəzifəlilərin kursa qəbul üçün müraciət etməmələri xahiş olunur.

*Təsdiq edilmişdir:*
***"OMNİ" Qapalı Səhmdar Cəmiyyətinin Ümumi Yığıncağının 29 may 2019-cu il tarixli qərarı ilə***

# "OMNİ" Qapalı Səhmdar Cəmiyyətinin 2018-ci il üzrə İllik Hesabatı

| "OMNİ" Qapalı Səhmdar Cəmiyyətinin | |
|---|---|
| - Direktoru | Roman Alloyarov |
| - Baş mühasib vəzifəsini icra edən şəxs | Fazil Cabbarov |
| | |
| Bakı | 29 may 2019-cu il |

"OMNİ" Qapalı Səhmdar Cəmiyyətinin (bundan sonra "Emitent") bu hesabatı Azərbaycan Respublikasının Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin № 10q, 03 fevral 2016-cı il tarixdə qəbul etdiyi "Emitentin idarəetmə hesabatlarına dair tələblər haqqında" Qaydalarına uyğun tərtib edilmişdir.

1. Emitentin tam adı: "OMNİ" Qapalı Səhmdar Cəmiyyəti;
Emitentin qısaldılmış adı: "OMNİ" QSC;
Emitentin vergi ödəyicisinin eyniləşdirmə nömrəsi: 1700160671
Emitentin dövlət qeydiyyatının tarixi və nömrəsi: 05.11.2003, 1700160671.
2. Emitentin hüquqi ünvanı: Bakı şəhəri, Səbail rayonu, Böyük Qala küçəsi 37;
Emitentin olduğu yer: Bric Plaza, Bakı şəhəri, Bakıxanov küçəsi 24.
3. Emitentin dövlət qeydiyyatına alınması tarixindən sonra Emitentin adında və təşkilati-hüquqi formasında heç bir dəyişiklik olmamışdır. Emitent digər hüquqi şəxsin bölünməsi və ya tərkibindən ayrılması şəklində yenidən təşkil yolu ilə yaranmamışdır. Emitent hüquqi şəxslərin birləşməsi şəklində yenidən təşkil yolu ilə yaranmamışdır.
4. Emitentin 2018-ci il ərzində filial və nümayəndəlikləri yaradılmamış və ya ləğv edilməmişdir.
5. Emitentin 2018-ci il ərzində hər hansı törəmə cəmiyyəti yaradılmamış və ya ləğv edilməmişdir.
6. Emitent heç bir şirkətlər qrupuna daxil deyildir.
7. Emitent aşağıdakı fəaliyyət istiqamətləri ilə məşğul olur:
7.1. Hüquq xidmətlərinin göstərilməsi.
8. Emitent lisenziya üzrə hər hansı bir fəaliyyətlə məşğul olmur.
9. Emitent tərəfindən təklif edilən xidmətlər aşağıdakılardan ibarətdir:
9.1. Şirkətlərin təsis edilməsi və dövlət qeydiyyatına alınması;
9.2. Mülki məhkəmə icraatında iddiaçı və ya cavabdehin maraqlarının müdafiəsi;
9.3. Müxtəlif sahələr üzrə müqavilələrin tərtib olunması, bağlanması, icrası, müqaviləyə dəyişikliklər edilməsi və müqaviləyə xitam verilməsi ilə bağlı mübahisələrin tənzimlənməsi;
9.4. Azərbaycan Respublikasının mülki, vergi, əmək, bank, rəqabət, anti-inhisar və digər qanunvericilik sahələrinə dair məslənətlərin verilməsi.
10. Emitentin işçilərinin sayı 6 (altı) nəfərdir. Hesabat dövrü ərzində işçilərin sayında mühüm dəyişiklik olmamışdır.
11. Emitentin idarəetmə orqanları aşağıdakılardan ibarətdir:
11.1. Cəmiyyətin təkbaşçı direktoru: Alloyarov Roman Valentinoviç
12. Emitentin fiziki şəxs olan səhmdarlarının sayı beşdir. Emitentin hüquqi şəxs olan səhmdarı yoxdur.
13. Emitentin nizamnamə kapitalının beş faizi və daha artıq həcmdə səsli səhmlərə (paylara) malik olan şəxslər üzrə məlumatlar aşağıdakı cədvəldə göstərilib:

| Səhmdarın Soyadı, Adı və Atasının adı | Qiymətli Kağızların Növü | Səhmdara Məxsus Olan Qiymətli Kağızların Sayı | Səhmlərin Nizamnamə Kapitalında Faiz Nisbəti |
|---|---|---|---|
| Alloyarov Roman Valentinoviç | adi adlı sənədsiz səhm | 19 (on doqquz) | 19% (on doqquz faiz) |
| Bayramova Aygün Hüseyn qızı | adi adlı sənədsiz səhm | 30 (otuz) | 30% (otuz faiz) |
| Məmmədov Riad Eldəniz oğlu | adi adlı sənədsiz səhm | 10 (on) | 10% (on faiz) |
| Zərgərli İsmayıl Fikrət oğlu | adi adlı sənədsiz səhm | 30 (otuz) | 30% (otuz faiz) |
| Vəzirova Xatun Rzaquliyevna | adi adlı sənədsiz səhm | 11 (on bir) | 11% (on bir faiz) |

14. Emitentin səhmdarlarının 2018-ci il ərzində keçirilmiş yığıncaqları haqqında məlumat:
14.1. 2018-ci il ərzində Emitentin səhmdarlarının bir ümumi yığıncağı keçirilmişdir:
14.1.1. Emitentin səhmdarlarının yeganə ümumi yığıncağı 10 may 2018-ci il tarixdə Bakı şəhəri, Bakıxanov küçəsi 24 ünvanında keçirilmiş və yığıncaqda aşağıdakı qərarlar qəbul edilmişdir:
(i) Emitentin illik hesabatının, mühasibat balansının və mənfəət və zərər hesablarının təsdiqi haqqında qərar;
(ii) Emitentin dividendlərinin ödənilməməsi haqqında qərar.
15. Emitentin dövriyyədə olan investisiya qiymətli kağızlarının buraxılışları haqqında məlumat:
15.1. Emitentin adi adlı səhmi (bundan sonra "Səhmlər") dövriyyədədir;
15.2. Səhmlərin dövlət qeydiyyat nömrəsi və dövlət qeydiyyat tarixi:
1010500K, 21 noyabr 2003-cü il;
15.3. Səhmlərin miqdarı və nominal dəyəri: 100 (yüz) ədəd, hər bir səhmin dəyəri 20 (iyirmi) manat;
15.4. Səhmlərin məcmu nominal dəyəri: 2000 (iki min) manat;
15.5. 2018-ci il ərzində Emitent tərəfindən Səhmlər üzrə ödənilmiş dividendlər haqqında məlumat: dividendlər ödənilməmişdir;
15.6. Yuxarıda qeyd edilən Səhmlər istisna olmaqla, Emitent tərəfindən səhm və ya istiqraz emissiyası həyata keçirilməmişdir;
15.7. Emitentin Səhmlərinin yerləşdirildiyi və ya tədavüldə olduğu fond birjasının adı və olduğu yer haqqında məlumat: "Bakı Fond Birjası" QSC, Bakı, Xətai rayonu, Babək pr, Ə.Quliyev 11/31, Babək Plaza 9-cu və 10-cu mərtəbələr, AZ 1025.
16. Hesabat dövrü ərzində Emitent tərəfindən xüsusi əhəmiyyətli əqdlər bağlanmamışdır.
17. Hesabat dövrü ərzində Emitent tərəfindən aidiyyəti şəxslərlə əqdlər bağlanmamışdır.
18. Ümumi yığıncaq 2018-ci il üzrə illik hesabatı 29 may 2019-cu il tarixdə təsdiq etmişdir.
19. 2018-ci il üzrə illik hesabat "Səs" qəzetində dərc ediləcəkdir.

***"OMNI" QSC***
***MÜHASİBAT BALANSI***
***31 dekabr 2018-ci il tarixinə***

(manatla)

| Bölümün,maddənin №-si | | 2018 | | 2017 | |
|---|---|---|---|---|---|
| | **AKTİVLƏR** | | | | |
| 1 | **Uzunmüddətli aktivlər** | | | | |
| 10 | Qeyri-maddi aktivlər | | | | |
| 11 | Torpaq, tikili və avadanlıqlar | 165 356,29 | | 128 660,20 | |
| 12 | Daşınmaz əmlaka investisiyalar | | | | |
| 13 | Bioloci aktivlər | | | | |
| 14 | Təbii sərvətlər | | | | |
| 15 | İştirak payı metodu ilə uçota alınmış investisiyalar | | | | |
| 16 | Təxirə salınmış vergi aktivləri | | | | |
| 17 | Uzunmüddətli debitor borcları | | | | |
| 18 | Sair uzunmüddətli maliyyə aktivləri | | | | |
| 19 | Sair uzunmüddətli aktivlər | | | | |
| | **CƏMİ UZUNMÜDDƏTLİ AKTİVLƏR** | | **165 356,29** | | **128 660,20** |
| 2 | **Qısamüddətli aktivlər** | | | | |
| 20 | Ehtiyatlar | | | | |
| 21 | Qısamüddətli debitor borcları | 566 850,91 | | 691 595,65 | |
| 22 | Pul vəsaitləri və onların ekvivalentləri | 2 652 730,68 | | 1 728 784,27 | |
| 23 | Sair qısamüddətli maliyyə aktivləri | 0,00 | | 0,27 | |
| 24 | Sair qısamüddətli aktivlər | | | | |
| | **CƏMİ QISAMÜDDƏTLİ AKTİVLƏR** | | **3 219 581,59** | | **2 420 380,19** |
| | **CƏMİ AKTİVLƏR** | | **3 384 937,88** | | **2 549 040,39** |
| | | | | | |
| | **KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | | | |
| | | | | | |
| 3 | **Kapital** | | | | |
| 30 | Ödənilməmiş nominal (nizamnamə) kapital | 2 000,00 | | 2 000,00 | |
| 31 | Emissiya gəliri | | | | |
| 32 | Geri alınmış kapital(səhmlər) | | | | |
| 33 | Kapital ehtiyatları | | | | |
| 34 | Bölüşdürülməmiş mənfəət(ödənilməmiş zərər) | 1 631 659,59 | | 1 417 813,12 | |
| | **CƏMİ KAPİTAL** | | **1 633 659,59** | | **1 419 813,12** |
| 4 | **Uzunmüddətli öhdəliklər** | | | | |
| 40 | Uzunmüddətli faiz xərcləri yaradan öhdəliklər | | | | |
| 41 | Uzunmüddətli qiymətləndirilmiş öhdəliklər | | | | |
| 42 | Təxirə salınmış vergi öhdəlikləri | | | | |
| 43 | Uzunmüddətli kreditor borcları | | | | |
| 44 | Sair uzunmüddətli öhdəliklər | | | | |
| | | | | | |
| | **CƏMİ UZUNMÜDDƏTLİ ÖHDLƏİKLƏR** | | **0,00** | | **0,00** |
| | | | | | |
| 5 | **Qısamüddətli öhdəliklər** | | | | |
| 50 | Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər | | | | |
| 51 | Qısamüddətli qiymətləndirilmiş öhdəliklər | | | | |
| 52 | Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | 60 499,00 | | 92 397,19 | |
| 53 | Qısamüddətli kreditor borcları | 1 143 383,49 | | 383 468,49 | |
| 54 | Sair qısamüddətli öhdəliklər | 547 395,80 | | 653 361,59 | |
| | **CƏMİ QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | | **1 751 278,29** | | **1 129 227,27** |
| | **CƏMİ ÖHDƏLİKLƏR** | | **1 751 278,29** | | **1 129 227,27** |
| | **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | **3 384 937,88** | | **2 549 040,39** |

**Direktor:** **Alloyarov Roman**

# Azərbaycanın ərazi bütövlüyü həllolunma ərəfəsindədir

## *İlham Əliyev : "Gün gələcək ki, bizim bayrağımız Şuşada da qaldırılacaq"*

***Bu, bir faktdır ki, Azərbaycan xalqı 200 il ərzində məkrli və qəddar düşmən olan ermənilərdən xainlik və satqınlıq görüb. Bu ərazilərdə bir sıra dövlətlərin maraqlarına uyğun gəldiyi üçün möhkəmlənən ermənilər ərazilərimizə göz dikib, himayədarlarının dəstəyi ilə kütləvi qətliamlar, soyqırımı aktları həyata keçiriblər. Bu siyasət ötən əsrin 90-cı illərindən daha geniş xarakter almağa başlamışdır. Rusiyanın vassalı rolunda çıxış edən Ayaz Mütəllibovun devrilməsi ilə hakimiyyəti zəbt edən AXC- Müsavat cütlüyü səhv, yanlış siyasəti ilə ölkə daxilində ciddi problemlər yaratmaqla yanaşı, cəbhədə Ermənistan tərəfindən torpaqlarımızın işğal edilməsinə rəvac verdilər.***



Nəticədə Dağlıq Qarabağ bölgəsinin (4,4 min km?) hüdudlarından kənarda yerləşən və onun ərazisindən 4 dəfə böyük olan Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilan rayonları Ermənistan silahlı qüvvələri tərəfindən işğal edildi. Bütün bu ərazilər ermənilər tərəfindən etnik təmizləməyə məruz qalmışdır. Belə ki, Azərbaycanın işğal olunmuş ərazilərindən 1 milyondan çox əhali öz torpağında qaçqın vəziyyətinə düşdü. İşğal nəticəsində 900-ə yaxın yaşayış məntəqəsi dağıdılmış, talan edilmiş və yandırılmışdır. Hazırda Azərbaycan ərazisinin 20 %-dən çox (17 min km?) hissəsi Ermənistan silahlı qüvvələrinin işğalı altındadır. 1988-1993-cü illərdə Ermənistanın hərbi təcavüzü nəticəsində, 20 000 nəfər azərbaycanlı həlak olmuş, 100 000 nəfərdən çoxu yaralanmış, 50000 nəfər isə müxtəlif dərəcəli xəsarət alaraq əlil olmuşdur. Münaqişə dövründə 4853 nəfər itkin düşmüş, onlardan 1357 nəfəri əsirlikdən azad edilmiş, 783 nəfəri isə hələ də Ermənistanda əsirlikdədir. Beynəlxalq Qırmızı Xaç Komitəsinin məlumatına görə, 439 nəfər əsirlikdə ölmüşdür.

## Horadizin azad edilməsindən Lələtəpəyə gedən yol

Erməni terrorçularının Azərbaycanın ərazilərini işğal edib, insanları qəddarcasına məhv etmələrinin qarşısı yalnız Ümummilli Liderimiz Heydər Əliyevin xalqımızın çağırışı ilə hakimiyyətə gəlişindən sonra alındı. Azərbaycan Ordusu Dahi Öndərimiz Heydər Əliyevin rəhbərliyi altında 1994-cü il yanvarın 5-də və 6-na keçən gecə keçirdiyi uğurlu əməliyyatla, Horadiz qəsəbəsi də daxil olmaqla, Füzuli rayonunun 21, Cəbrayıl rayonunun isə 1 yaşayış məntəqəsini erməni işğalçılarından azad edib. Horadiz əməliyyatı 1993-cü ilin dekabrından başlayıb, 1994-cü ilin 6 yanvar tarixinə kimi davam edib. O zaman Azərbaycan Milli Ordusu Horadizi işğaldan azad edərək, qəsəbədə asılmış erməni bayrağını ayaqlar altına atdı. Ağır faciələrə, məşəqqətlərə düçar olacağını anlayan ermənilər himayədarlarını vasitəçiminnətçi rolunda meydana çıxarmaqla, 1994-cü ilin mayın 12-də cəbhədə atəşkəsə nail olundu. Atəşkəsin elan olunması münaqişənin həlli demək deyildi, sadəcə olaraq, tərəflər hərbi əməliyyatları dayandırmaqla beynəlxalq təşkilatlara, xüsusilə də, münaqişə ilə birbaşa məşğul olan ATƏT-in Minsk Qrupuna münaqişənin tənzimlənməsi ilə bağlı operativ işləməsinə şərait yaratmış oldular. Münaqişənin danışıqlar yolu ilə nizamlanması təşəbbüsünə başladığı andan keçən dövrdə Ermənistanın təcavüzkar əməllərindən əl çəkməməsinə baxmayaraq, ATƏT danışıqlar prosesini gücləndirməyə səy göstərirdi. 1994-cü ilin 6 dekabr tarixində keçirilən ATƏT-in Budapeşt sammitinə, əsasən, Minsk konfransı həmsədrlərinin institutu (əvvəlcə Rusiya və Finlandiya, 1997-ci ildən isə Fransa, Rusiya və ABŞ) yaradıldı. Cəbhədə atəşkəsə nail olduqdan sonra Azərbaycana, bütün sahələrdə olduğu kimi, həm də ordu quruculuğunda geniş və hərtərəfli işlər görülməyə başlanıldı.

## Beynəlxalq aləm erməni yalanlarının iç üzünü daha aydın görür və tanıyır

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində Azərbaycanın apardığı siyasət ardıcıl və dəyişməzdir. Görülən işlər və həyata keçirilən beynəlxalq siyasət nəticəsində, son illərdə Ermənistanın təcavüzkar siması beynəlxalq aləmdə ifşa olunmaqda davam edir. İndi beynəlxalq aləm erməni yalanlarının iç üzünü daha aydın görür və tanıyır. Ermənistanın iç üzünün tanınması bu ölkənin hərbi xuntasının həm də ifşası deməkdir. Avropa Parlamenti və NATO-nun Zirvə toplantılarında qəbul olunan qərarlarda, birmənalı şəkildə, Azərbaycanın ərazi bütövlüyü dəstəklənir və işğala son qoyulması bildirilir. NATO-nun 1994-cü il Brüsseldə, 2006-cı ildə Riqada, 2008-ci ildə Buxarestdə, 2009-u ildə Strasburq və Dehldə keçirilən Zirvə toplantılarında olduğu kimi, 2010-cu il noyabrın 19-20-də Lissabonda keçirilən Zirvə toplantısında qəbul edilən Yekun Bəyannaməsinin 35-ci maddəsində də NATO Azərbaycanın ərazi bütövlüyü, müstəqilliyi və suverenliyni tanıdığını bir daha təsdiq etməklə yanaşı, sənəddə Alyansın Cənubi Qafqaz və Moldovada münaqişələrin hələ də davam etməsindən narahat olduğu bildirilir və bütün tərəfləri bu məsələlərdə konstruktivlik, eləcə də siyasi iradə nümayiş etdirərək, bu münaqişələri sülh yolu ilə həll etməyə, hazırda gedən danışıqlara hörmətlə yanaşmaqla, bütün tərəflərdən regional sabitliyi və təhlükəsizliyi poza biləcək addımlardan çəkinməyə çağırılır. Azərbaycanın 2012-2013-cü illər üçün BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsi və ardıcıl olaraq, ölkəmizdə qlobal miqyaslı idman və mədəniyyət tədbirlərinin keçirilməsi Azərbaycanın dünyada yerinin və rolunun möhkəmlənməsinə təkan olmaqla, Dağlıq Qarabağın Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmasına imkanlar yaradıb. Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov "Nezavisimaya qazeta"da dərc olunan məqaləsində qeyd edib ki, Azərbaycanın mövqeyi ondan ibarətdir ki, BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icrası yolu ilə respublikanın suverenliyi və sərhədləri beynəlxalq səviyyədə tanınsın: "Bu, Dağlıq Qarabağın azərbaycanlı və erməni icmalarının dinc və təhlükəsizlik mövcudluğunu təmin etməyə imkan verəcək. Sülh, çiçəklənmə və əməkdaşlıq şəraitində hər iki icma bölgənin cari və gələcək məsələlərini birgə həll edə biləcək və bu, Ermənistanla Azərbaycan arasında mehriban qonşuluq münasibətlərinin, eləcə də regionda sülhün və təhlükəsizliyin bərqərar olunması üçün əsas verəcək". E.Məmmədyarov əlavə edib ki, münaqişənin tez bir zamanda həlli üçün ciddi işlər görüləcək və bununla da, danışıqların imitasiyasına yox, real danışıqlar prosesinə start veriləcək.

## Qələbə xəbəri uzaqda deyil

Təbii ki, Ermənistan sülh yolu ilə Dağlıq Qarabağ münaqişəsinin həllində ortaq mövqeyə gəlməsə, o zaman sözü Ali Baş Komandan İlham Əliyevin əmri ilə dünyanın ən güclü ordularından olan Azərbaycan Ordusu deyəcək. Necə ki, ordumuz 2016-cı ilin aprel döyüşlərində Ermənistan ordusunu məhv etməklə Lələ Təpədə üç rəngli bayrağımızın dalğalanmasını təmin etməklə, hərb tarixinə qələbə zəfərini yazdı. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev aprel döyüşlərinə xüsusi önəm verərək, onu şanlı tariximiz adlandırmışdır: "Aprel döyüşləri bizim böyük hərbi qələbəmizdir. Uzun illər Ermənistan öz ordusu haqqında miflər yaradırdı, uydurmalar irəli sürürdü ki, guya bunların yenilməz ordusu var. Aprel döyüşləri göstərdi ki, kimin ordusu yenilməzdir".

Dövlətimizin başçısı İlham Əliyev onu da bildirib: "Məhz aprel döyüşlərindən sonra Ermənistanın müdafiə naziri başda olmaqla, bir çox yüksək vəzifəli hərbçilər öz vəzifələrindən kənarlaşdırıldı. Bu, aprel döyüşlərinin nəticəsi idi. Bizim əsgərlərimiz və zabitlərimiz qəhrəmanlıq göstərdilər. Biz şəhidlər də verdik. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Ancaq torpağımızı qoruduq, torpaqlarımızın bir hissəsini işğalçılardan azad etdik. Aprel döyüşləri hərbi kitablara salınmalıdır. Azərbaycan Ordusu həm hərbi peşəkarlıq, həm qəhrəmanlıq göstərmişdir".

Aprel döyüşləri, ilk növbədə, Ermənistan dövlətini, cəmiyyətini sarsıtdı və onlara ağır zərbə vurdu. Ermənistanda yalandan formalaşdırılmış "məğlubedilməz ordu" mifini heçə döndərdi. Düz, dörd günün içində, işğalçılar xaricdəki havadarlarının ayaqlarına düşdülər ki, Azərbaycan Silahlı Qüvvələrinin zəfər yürüşünün qarşısı alınsın. Yenidən atəşkəsə nail olmaq üçün elə də uzağa getməyərək, həmin vaxtlar Serj Sarkisyan rejiminin və separatçı "DQR" rəhbərliyinin xarici ölkələrlə apardıqları danışıqları xatırlamaq kifayət edər. Yəni bütün bunlar, bir daha sübut etdi ki, "erməni ordusu" əfsanəsi, əslində, sabun köpüyündən başqa bir şey deyilmiş. "Tərəflər "dördgünlük" müharibə adlandırdığı, 2016-cı ilin 1-4 aprelində baş vermiş hərbi qarşıdurmadan düzgün nəticələr çıxarmadı". Bu qənaətə Londondakı LINKS Analitika Mərkəzinin rəhbəri, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllini dəstəkləyən Avropa İttifaqının təşəbbüsü - EPNK Konsorsiumuna daxil olan təşkilatın eksperti Dennis Sammut gəlib. "CommonSpace.eu" saytında dərc edilən məqaləsində müəllif qeyd edir ki, hazırda münaqişə tərəfləri - Azərbaycan və Ermənistan münaqişənin sülh yolu ilə həlli variantına ciddi yanaşmalıdır. Sammut yazır ki, Ermənistanın Dağlıq Qarabağı işğal altında saxlaması uğursuzluqdur. Dünyanın heç bir ölkəsi heç vaxt davam edən erməni işğalına dəstəyini göstərməyib, Azərbaycanın bu itki ilə razılaşması ehtimalı isə sıfıra bərabərdir. D.Sammut hesab edir ki, hazırda beynəlxalq ictimaiyyət Dağlıq Qarabağ münaqişəsinin həllinə öz töhfəsini verməlidir: "Bunun Dağlıq Qarabağın gələcək statusu ilə bağlı kreativ ideyanın işlənib-hazırlanması ilə etmək mümkündür. Prosesin sonunda Dağlıq Qarabağın statusu sülh yolu ilə həll olunması məsələsi dayansa da, lakin bu, ümumi konsepsiyanın işlənib- hazırlanmasını dayandırmamalıdır". Nöbəti aprel döyüşləri təkrarlansa, bu, Ermənistanın, bir dövlət olaraq, mövcudluğunun sonu ola bilər. Çünki müharibə başlayacağı təqdirdə, Azərbaycan Ordusu tam hərbi üstünlüyə malikdir. Bu üstünlük tək hərbi texnika ilə tamamlanmır. Artilleriya və raket sistemlərinin də müasirliyi və sayı ölkəmizin xeyrinədir. Bunu erməni siyasətçiləri deyil, eləcə də onların havadarları olan xarici erməni təşkilatları və siyasətçiləri də təsdiqləyir və açıqlamalarında bunu etiraf edirlər. Bu baxımdan demək olar ki, işğal altında olan ərazilərimizin azad edilməsi günü uzaqda deyil. Qətiyyətli və inamlı olmağı bizə Ulu Öndərimiz Heydər Əliyev öyrədib. Bu əminliyi Azərbaycan Prezidenti İlham Əliyevin Cocuq Mərcanlıda söylədiyi tarixi fikirdə möhkəmləndirir: "Bu gün Lələ Təpədə və işğaldan azad edilmiş digər torpaqlarda Azərbaycan bayrağı dalğalanır. Gün gələcək ki, bizim bayrağımız Şuşada da qaldırılacaq".

RƏFİQƏ KAMALQIZI

***Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun 22 iyul - Azərbaycan Milli Mətbuatının yaranmasının 144-cü ildönümü ilə əlaqədar keçirdiyi fərdi jurnalist yazıları müsabiqəsinə***

# Əli Kərimlinin həbs labüdlüyü

## Onun kimi digər antimilli ünsürlər barəsində sərt ölçü götürməli və cəmiyyətdən təcrid edilməlidirlər!

***Ötən yazılarımda AXCP sədrinin portretini cızarkən, dəfələrlə qeyd etmişəm ki, Əli Kərimlinin burnu qarğanın dimdiyinə oxşayır və bunun da səbəbi həmin burnunun hər yerə müdaxilə etməsidir. Yəni bu, həqiqətən də, belədir. Kərimlinin burnunun qarğa dimdiyi kimi uzanması, bir sıra məsələləri önə çıxarırdı və nəticəsi isə uzun zamanlardır ki, qəti tələblər sırasında idi - Ə.Kərimli həbs olunmalı və qanun qarşısında cavab verməlidir. Nəhayət, bu, baş verdi...***

Məlum olduğu kimi, bir neçə gün əvvəl Binəqədi rayon məhkəməsinin qərarı ilə AXCP sədri Ə.Kərimli polis tərəfindən saxlanmışdı. Belə ki, onun süni surətdə ictimai narazılıq yaratmağa, müqavimət hərəkatı formalaşdırmağa və cəmiyyətdə mövcud olan sabitliyi pozmağa cəhd göstərdiyi bildirilir. Eyni zamanda qeyd olunur ki, Ə.Kərimli ictimai asayişi kobud surətdə pozan, qanunların tələblərinə riayət etməyən, polisə müqavimət göstərən və digər bu qanunazidd əməllər törədən şəxslərə kəsilmiş cərimələrin ödənilməsinə, guya yardım göstərmək məqsədilə, "xeyriyyə marafonu" adı altında müxtəlif çağırışlar irəli sürmüş və kampaniya təşkil etməyə çalışmışdır. Məhz bu baxımdan, sağlam düşüncəli ictimai rəy AXCP sədrinin həbsini tələb edi. Çünki onun özü və ətrafı istər sosial şəbəkələrdə, istərsə də mitinqlərdə Azərbaycan dövlətinin maraqlarına qarşı çıxışlar edir, bununla da isbatlayırdı ki, zamanında "şeytanla da əməkdaşlığa hazıram" ifadəsini elə-belə deməyib. Əgər bu adam düşmənlərimizlə iş birliyinə gedirsə, deməli, xəyanətkardır. Xəyanət isə bağışlanılmır!

O da, əbəs deyil ki, ölkənin bir sıra tanınmış siyasətçiləri - istər iqtidar, istərsə də müxalifət düşərgəsindən olsunlar, hər biri AXCP sədrinin keçmişi və indiki vəziyyəti ilə bağlı fikir bildirərkən, onun nə qədər xain ünsür olduğunu dilə gətiriblər.

### Aydın Mirzəzadə: "Əli Kərimli açıq təxribata əl atır"

Misal üçün, millət vəkili Aydın Mirzəzadə də AXCP sədri Ə.Kərimli və partiyanın funksionerləri və fəallarının ictimai asayişi kobud surətdə pozmaq istəyən, qanunların tələblərinə riayət etməyən, polisə müqavimət göstərən və digər bu kimi qanunazidd əməllər törədən şəxslərə kəsilmiş cərimələrin ödənilməsinə guya yardım göstərmək məqsədilə "xeyriyyə marafonu" adı altında müxtəlif çağırışlar irəli sürməklə bir daha cinayətkar əməllə sahibi olduqlarınnı nümayiş etdirdiklərini vurğulayıb və qeyd edib ki, bunda əsas məqsəd qanunu pozmuş və buna görə də, cəzalandırılmış şəxslərə bəraət qazandırmaq, cəmiyyətdə hüquq-mühafizə və məhkəmə sisteminə inamsızlıq formalaşdırmaqdır: "Əslində, həmin şəxslər, bilavasitə Ə.Kərimlinin özünün təlimatı əsasında hüquq pozuntuları törədiblər, qanunsuz aksiyalar keçirməyə cəhd ediblər, polisin qanuni tələblərini yerinə yetirməkdən imtina edərək, müqavimət göstəriblər və digər bu kimi əməllər törədiblər. İndi də Ə.Kərimli hakimiyyət orqanlarına qarşı kampaniya təşkil edir, bu cəzaların əsassız olduğunu isbat etməyə çalışır. Onun bu fəaliyyətini yalnız süni şəkildə ictimai narazılıq, müqavimət hərəkatı formalaşdırmaq və cəmiyyətdə mövcud olan sabitliyi pozmaq cəhdi kimi səciyyələndirmək olar. Belə demək mümkündürsə, Ə.Kərimli, artıq sözdən əmələ keçərək, açıq təxribatla məşğuldur".



A.Mirzəzadə onu da bildirib ki, bu məsələnin maraqlı tərəfi Ə.Kərimlinin pozucu fəaliyyətinin diqqətdən kənarda qalması, aidiyyəti orqanların buna heç bir reaksiya verməməsidir: "Hüquq- mühafizə orqanları qanunu pozub aksiya keçirən insanı saxlayır və cəzalandırır. Lakin bunun təşkilatçısına qarşı heç bir tədbir görülmür. Artıq Ə.Kərimli və onun kimi açıq təxribatları təşkil edənlərə "dur" deməyin vaxtı çatıb və aidiyyəti orqanlar bu təxribatların qarşısını daha təsirli metodlarla almalıdırlar".

### Mirmahmud Mirəlioğlu: "Əli Kərimli sosial şəbəkələrin qananı, "təmizi" ola bilər, onun kimi oyunbaz satqını isə yoxdur"

Bu arada, KXCP sədri M.Mirəlioğlunun da AXCP sədri barədə dediklərini xatırlamaq olar. O, hələ bir müddət əvvəl, demişdi ki, Ə.Kərimlinin bu manyak "arzusu" bu dəfə onun başında bərk partlayacaq. Məsələn, bu günlərdə Ə.Kərimlinin mərhum Əbülfəz Elçibəyin ruhu qarşısında həyasızcasına hər zamankı kimi yenə də sosial şəbəkədə ortalığa düşüb, özünü "qanan" hesab etməsini görərək, bu "əxlaqsızı cavabsız qoya bilmərəm" deyib cavabını verdi: "Axı sən kimsən ki, ortalığa düşmüsən? Müxalifəti bu günə salan sən oyunbazsan. Ölkədə keçirilən bütün siyasi proseslərdə daha çox siyasi oyunbazlıq və siyasi əxlaqsızlıq nümayiş etdirirsən. Azərbaycan siyasətində sən Ə.Kərimli qədər xəyanətkar görməmişəm".

KXCP sədri, həmçinin, Ə.Kərimlinin əxlaqsız olduğunu da bildirib: "Mən Ə.Kərimli kimi oyunbazlıq etmirəm, gördüklərimi deyirəm. Siyasətdə siyasi əxlaqsızlıq, özündən böyüyə hörmətsizlik etməyi, ayaqaltı qazanlığı, iyrəncliyi, insanlar haqqında çirkin kampaniyalar aparıb ləkələmək kimi işlərin altına imza atan Ə.Kərimlinin bu gün siyasət aləmində qalmasının özü qəribədir. İndi də bədbəxtçilik ondadır ki, bala Kərimli peyda olub. Bu məxluqlar başdan-ayağa kimi zəlidirlər. Belələri, nəinki cəmiyyətin inkişafına yardımçı ola bilər, əksinə, mümkün qədər cəmiyyətə zərər verməklə məşğul olacaq. AXCP-ni quran, onu ortaya çıxaran və sivil mübarizəsini təşkil edən Əbülfəz Elçibəy idi. Məhz Əbülfəz bəyin sayəsində partiya partiyalılığını qoruyub-saxlamışdı. Amma ona qarşı Ə.Kərimli tərəfindən aparılan kampaniyalar, xüsusən də, iyrənc formada təşkil edilən məlumatlar yaymaq mahiyyət etibarilə, bu şəxsin hansı ləyaqət və şəxsiyyət sahibi olduğunu ortaya qoyurdu. Onun indiyə qədər "xəyanətkar" adlandırdığı şəxslər, əslində, kifayət qədər aydın fikirli insanlar olublar və xəyanətkarın ən yekəsi elə onun özüdür və bu gün Kərimlinin "siyasi mühacir" törəmələri özü kimi əxlaqsıza qarşı çıxırlar. Belə də olmalı idi".

M.Mirəlioğlu onu da bildirib ki, sözügedən şəxs fərdi keyfiyyətlərinə görə də, siyasət adamı olmağa layiq deyil: "Fərdi xüsusiyyətlərinə görə, daha çox araqarışdıran missiyasını üzərinə götürmüş, xaricdən aldığı pullar sayəsində şəxsi mənafeyini qorumaq üçün yararlanmaq kimi işlərə baş vuran AXCP sədri bu hərəkətləri ilə özü barədə mənfi reputasiya yaratmağa səbəb olub. Məhz onun intriqabazlığı, hadisələrə obyektiv deyil, qərəzli yanaşma tərzi nümayiş etdirməsi partiyasının məhvinə gətirib çıxarmaqdadır. Xəyanətkarlığı, çirkin hərəkətləri, şərləmə kampaniyaları aparması səbəbindən, ən sədaqətli dostları belə onu tərk edərək, ayrı-ayrı partiyalarda fəaliyyət göstərməyə başladılar. Bir sözlə, Ə.Kərimlinin siyasi arenada qalması, mahiyyət etibarilə, Azərbaycan cəmiyyətinə zərər verməkdən başqa, heç də dividend qazandırmır. Ona görə ki, bu cəmiyyət tərbiyəsi şübhəli, əxlaqı ziddiyyətli olan birini nə qəbul edir, nə də bu cür xəyanətkarları bağışlamağı sevir".

Bir məqamı demək istərdim, əvvəla, kimliyindən asılı olmayaraq, cinayətkar həbs olunmalıdır, bu AXCP sədri yox, hər hansı başqa bir partiya sədri də olsa, məmur da olsa, fərqi yoxdur. Qanun hər kəs üçün eynidir. Bəli, həmişə demişəm, bu gün də deyirəm: ən böyük cinayətkar Ə.Kərimlidir... Tarixə nəzər yetirək: 2003-cü ildə ibrət dərsi çıxarmağa məcbur olduğunuz hadisələr baş verdi. Ə.Kərimli və İ.Qəmbər evlərində oturaraq, qapılarını bayırdan qıfılla bağlatdırıb, mürəbbəli çay içirdilər. Bəs bu zaman "Azadlıq" meydanında nə baş verirdi? Bu iki şəxsin pul verib öyrətdiyi, antiazərbaycançı, terrorçu, ermənipərəst insanlar şəhərimizi dağıtmağa cəhd göstərdilər. Dükanların vitrinlərini, şüşələrini, avtobusların təkərlərini partladıb, şüşələrini sındırdılar, insanları döydülər. Bu adamların hamısı qanunla öz layiqli cəzalarını aldılar. Ə.Kərimli və İ.Qəmbər, həqiqətən də, müxalifət "lider"ləri idilərsə, nə üçün partiyadaşlarının önündə getmirdilər? Nə üçün partiyadaşları şəhərin küçələrində anarxiya yaradanda, özləri mürəbbəli çay içirdilər? Axı danışanda, tarixdən və siyasi mübarizə metodlarından danışırlar. "Lider"iniz önünüzdə olmalı deyildimi? Niyə qaçıb gizlənmişdi?

Bəli, hər şeyin öz zamanı var, bütün cinayətkarların da qanun qarşısında dayanacağı vaxt var. O zamana az qalıb. Bir gün Ə.Kərimli də qanun qarşısında dayanacaq, bu cəbhəçilərə indi gülməli gəlsə də, ancaq bu, baş verəcək! Sübutlar VƏ dəlillər öz sözünü deyəcək. 1992-ci ildə 26 yaşlı bir gəncin hansı "xidməti"nə görə dövlət katibi olması, Elçibəyin öldürülməsindəki "incə" faktlar, həbs edilən müxalifətçilərin başı üzərindən qazanılan pullar, "siyasi mühacir" və "siyasi məhbus" biznesi vasitəsilə əldə olunan külli miqdarda vəsaitlərin necə əldə olunması araşdırılır VƏ araşdırılmaqdadır. Ancaq bu, bir real faktordur ki, Ə.Kərimli kimi satqın parazit və əxlaqsızlar nə qədər də Azərbaycan dövlətinin qüdrətlənməsinə, dünyada söz sahibinə çevrilməsinə qarşı çıxış etsələr də, elə o çirkab bataqlığında eşələnə-eşələnə qalacaqlar. "İt hürər, karvan keçər" məsəlinə boş yanaşmaq da olmaz. Ona görə də, Azərbaycan iqtidarı dövlətin, millətin maraqlarını heçə sayan, hər kəsi mənəvi terrora məruz qoymağa çalışan Ə.Kərimli və onun kimi antimilli ünsürlər barəsində sərt ölçü götürməli, cəmiyyətdən təcrid etməlidir və edildi də. Bu, dövlətini, Vətənini sevən hər bir azərbaycanlının sifarişi idi və qanun qarşısında cavab verməli olan əsas ünsür Əli Kərimlidir!

**Rəfiqə HÜSEYNOVA**

# "Nar-ın eşitmə məhdudiyyətli insanlar üçün peşə təlimləri davam edir

***Fiziki məhdudiyyətli insanların cəmiyyətə inteqrasiyasına hər zaman xüsusi diqqət ayıran "Nar"-ın dəstəyi ilə keçirilən "Təlim Məktəbi" layihəsinin ikinci mərhələsi başa çatıb.***




Belə ki, 15 nəfərlik qrup intensiv aşpazlıq təlimini başa vuraraq, bu peşənin incəliklərinə yiyələniblər. "Karlara Dəstək" İctimai Birliyi ilə birgə reallaşdırılan layihə çərçivəsində artıq son təlim mərhələsinə də start verilib. Öncədən aparılan sorğu əsasında iştirakçıların marağına uyğun olaraq seçilən motorçu peşə təlimi öz işinə başlayıb. Motorçu təliminin özəlliyi ondan ibarətdir ki, təlimçi 3-cü qrup eşitmə məhdudiyyəti olan və artıq 12 ildir ki, avtomobil ustası çalışan Bəhrəm Hüseynovdur. Onun sözlərinə görə, avtomobilin təmiri zamanı bəzən səsləri duymağa ehtiyac olsa da, güclü intuisiya qabiliyyəti ilə işin öhdəsindən asanlıqla gəlmək mümkündür.

Qeyd edək ki, "Nar" tərəfindən təşkil edilən "Təlim məktəbi" layihəsi eşitmə məhdudiyyəti olan insanların peşə sahibi olmaqla cəmiyyətə inteqrasiyasına dəstək məqsədilə keçirilir. Bu layihə eşitmə məhdudiyyətli insanların işlə təmin olunmasına da yardım edəcək. Peşə təlimi ilkin olaraq paytaxt Bakıda start götürüb. Gələcəkdə isə bölgələrdə də "Təlim məktəbi" layihəsinin davam etdirilməsi planlaşdırılır.

"Nar" 4 ilə yaxındır ki, eşitmə məhdudiyyətli insanlar üçün bu cür təlimlər təşkil etməklə, onların müxtəlif peşəyə yiyələnməsinə və iş bacarıqlarının artmasına töhfə verir. Fiziki məhdudiyyətli insanlara dəstək və onların cəmiyyətə inteqrasiyası "Nar"-ın korporativ sosial məsuliyyət (KSM) strategiyasının əsas istiqamətlərindən biridir. "Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. "Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 97%-ni (işğal olunmuş ərazilər istisna olmaqla) əhatə edir və 7500-dən artıq baza stansiyası ilə 2,3 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir.

TƏRS BAXIŞ

# Sevinc Osmanqızı, bəs sən kimlərə işləyirsən?

## *Yaxud amerikan kəşfiyyatının seks bombasını "partladan" nədir?*

***Bunların "demokratiyası" artıq olmayacaq ki..? Kim ki, bunların "demokratik" sərsəmləmələrinə arqumentli, faktlara əsaslanan fikir ortaya qoyursa, dərhal "blok" olunur və susdurulur. Bu gün sosial şəbəkələrdə onun-bunun sifarişlərini canla-başla həyata keçirib, əvəzində, filan qədər dollar, avro əldə edənlərə, Vətəninin maraqlarını amerikan, ingilis və s. ölkələrin xəfiyyələrinə bir gecəlik yataq eşqinə satanlaradır sözüm. Sözüm, Sevinc Osmanqızınadır!***

**Bir fərd ki, öz ailəsinə, soyadına qarşı xəyanət edirsə, ondan bütün rəzillikləri, riyakarlıqları və ləyaqətsizlikləri gözləmək mümkündür**

Ümumiyyətlə, nəinki milli maraqları, eləcə də vicdanını, mənəviyyatını, ləyaqət və şərəfini, hətta ailə maraqlarını (!) pula satan Sevinc Osmanqızı zaman-zaman Azərbaycan dövləti tərəfindən mənzillə mükafatlandırılan jurnalistləri də çirkin niyyətinin hədəfinə çevirir. Nədir onun bu məsələdəki maraqları? Bəllidir - bu gün Azərbaycan dövlətinin çörəyini yeyən, Vətəninin suyunu içən hər kəs Sevincə və onun kimi siyasiləşmiş qrant vassallarına heç də xoş olmur. Bilirsinizmi niyə? Ona görə ki, mən, o, digər vətənsevər jurnalistlər, qələm adamları heç vaxt (!) öz peşəsinə, dövlətinə, dövlət başçısına xəyanət etməyib, etməyəcək də! Xəyanət ölümdən betər bir şeydir və bunu, sadəcə, anlamaq lazımdır. Sevinckimiləri üçün isə, xəyanət etmək ən adi bir məsələdir. Bir fərd ki, öz ailəsinə, soyadına qarşı xəyanət edirsə, ondan bütün rəzillikləri, riyakarlıqları və ləyaqətsizlikləri gözləmək mümkündür.

**Bizə bu mükafatı AZƏRBAYCAN DÖVLƏTİ verib və bizlər də bununla fəxr edirik!**



Beləliklə, Sevinc Osmanqızının növbəti hədəfi, dövlət tərəfindən mükafatlandırılmış jurnalistlər olsa da, bizim alnımız açıq və üzümüz də ağdır. Yəni bu mükafatı bizlərə nə amerikan kəşfiyyatı, nə ingilis xəfiyyəsi, nə də erməni lobbisinin maraqlarını həyata keçirən müxtəlif anti-Azərbaycan qurumları verib, bizə bu mükafatı AZƏRBAYCAN DÖVLƏTİ verib və bizlər də bununla fəxr edirik!

Sevinc Osmanqızı, bəs sən kimlərə işləyirsən?! Bu, artıq bəllidir və işlədiyin, daha doğrusu, qul olduğun, nökərçilik, naiblik etdiyin qurum və təşkilatlar əlbət bir gün səni də öz zibil yeşiklərinə atacaqlar - işlənmiş salfet, tualet kağızı, hətta işlənmiş ... kimi! Buna əməlli-başlı əmin ola bilərsən, qeyd-şərtsiz! Sənin xarici kəşfiyyatçılar altında eyş-işrətli inləmələrin mütləq və mütləq istəmədiyin nəticəni verəcək və onda da, çox gec olacaq.

Sən hələ də Mayamidə 261 min dollarlıq mülkünü necə əldə etməyin barədə, bir kəlmə də olsa, açıqlama verməmisən. Susursan, niyə əcəba?!

**Sevinc Osmanqızı, gəl mənzil alan jurnalist göstər ki, onlar bu gün də tənqidi jurnalistika sahəsində deyillər!**

Məgər bu qədərmi alçaq olmalısan ki, adını "jurnalist" qoyub da, jurnalistlərə dil uzadasan? Mənzil alan jurnalistlər həyatları boyu yaşayıb-çalışaydılar, yenə də həmin mənzillərə sahib ola bilməzdilər. Amma bunu dövlət başçısı - JURNALİSTLƏRİN DOSTU etdi! Ona görə yox ki, jurnalist öz sözünü deməsin, yazmasın və s. Əksinə, daha fəal olsun, ictimaiyyətdə, ölkədə baş verən hadisələrə daha aktiv yanaşsın, çatışmayan hər hansı bir məsələni müxtəlif müvafiq qurumların diqqətinə çatdırsın və problemlərin həlli istiqamətində peşə borcunu vicdanla davam etdirsin. Sevinc Osmanqızı, gəl mənzil alan jurnalist göstər ki, onlar bu gün də tənqidi jurnalistika sahəsində deyillər! Göstərə bilməzsən, çünki fər-



qi yoxdur, istər tənqidi jurnalistika olsun, istərsə də hər hansı bir sahə üzrə fəaliyyət göstərən jurnalistika olsun - qələm adamı yazıb, yazır və yazacaq da! Sənin bu kimi sərsəm iddiaların, sadəcə, ürək bulandırmaqdan başqa heç nə deyil.

Ona görə də, bənzər danışdıqların, sosial şəbəkələrdə guya ki, "tənqidi" fikirlər bildirib, əslində, xəfiyyələrin buyruqlarını həyata keçirməyin boş-boş məsələlərdir və kimsənin marağına təsir etmir.

Rövşən RƏSULOV

***P.S. Sevinc Osmanqızı, sən xarici xəfiyyələrin seks-bombası olaraq, sadəcə, "partlayırsan", hətta "partadılırsan". Amma bu "partlayışların" səsi burnundan o yana çıxmır. Hərgah, o burnunu artıq kifayət qədər lazımsız yerlərə dürtüşdürmüsən və anla ki, məni, onu, digər jurnalisti sosial şəbəkələrdə bloka salıb, səsimizin çıxmasının qarşısını öz ucuz "demokratik" təfəkkürünlə batırmaq istəyirsənsə, buna nail ola bilməzsən - çox zəifsən, işlədilməkdən isə tükənmisən!***

# "Nar"dan gənclərə növbəti iş fürsəti

Gənclərə dəstək olmaq və onların uğurlu karyera qurmasına kömək etmək məqsədilə "Nar" son 6 ay ərzində 5-ci əmək yarmarkasında iştirak edib. Bakı Biznes Universitetində keçirilən "Məzun - 2019" buraxılış tədbiri çərçivəsində mobil operator tələbə və məzunlara mövcud vakant iş yerləri haqqında məlumat verilib. "Karyerada ilk addım" devizi altında keçirilən əmək yarmarkasında mobil opeator müştərilər, satış və biznesin təhlili üzrə mütəxəssis vakant vəzifələrinə sənəd qəbulu təşkil edib. Bundan başqa, mobil operator universitetin tələbə və məzunlarına uğurlu karyera barədə məsləhətlər verib. Tələbələr karyera imkanlarını dəyərləndirmək, həmçinin bu şirkətlərin təcrübə proqramlarında iştirak barədə məlumat əldə etmək imkanı qazanıblar.




Qeyd edək ki, gənclərə dəstək və iş imkanlarına çıxışın təmin edilməsi "Nar"ın korporativ sosial məsuliyyət (KSM) strategiyasında yer alan istiqamətlərdən biridir. "Nar"ın davamlı olaraq həyata keçirdiyi KSM layihələri haqqında ətraflı məlumatı nar.az saytından əldə etmək olar.



Təhmasib Novruzov

# Qeybətli "kişi"lərin qeyrətsizlikləri

***Qeybəti qadınlar edər deyirlər. Yəni "tərsə"si də budur ki, kişi qeybət eləməz. Bizim sadə peşə adamı, rəhmətlik Şükür kişi də belə deyərdi. Hələ bir az da irəli gedib deyərdi ki, bir kişi qeybət edirsə, ondan qeyrət gözləməyin.***

Əvvəl-əvvəl, bir öyrənək görək, axı bu qeybət nə olan şeydi ki, onu kişilərə rəva görmürlər? Bizim anladığımıza görə, qeybət də elə söhbətin bir növüdür. Yəni iki və daha çox adam bir-biri ilə söhbət edirsə, ya baş vermiş bir hadisəni müzakirə edirlər, ya biri digərinə nəsihət verir, ya biri digərinə haçansa, kimdənsə eşitdiyi bir hekayəti danışır, ya da... Hə, bax, məsələ bu sonuncu "ya"dadır ki, sadaladıqlarımızın heç biri deyilsə, deməli, qeybət edirlər. Yəni ki, ya olmayan bir şeydən gen-bol danışıb ürəklərini boşaldırlar, ya da olan bir şeyi şişirdib danışırlar, yəni qarışqanı fil eliyib, soxurlar bir-birinin gözünə. Əgər bunu qadınlar edirsə, adi hal kimi qəbul edilir. Çünki qadında "hulqum" olmadığından, nə istəsə danışar və onun danışdıqlarına da əhəmiyyət verilməz. Amma əgər kişi bunu edərsə, kişidən hesab soruşarlar və ağzından çıxan sözlərə görə cavab verməli olar. Bu dediklərim bir az keçmiş zamanlardakı kişilərə aid olsa da, elə indi də səl kişilər milli mentalitetimizə dəxli olan bu dəyəri qoruyub-saxlayırlar. Amma di gəl, elə "kişi"lər var ki, çox dəyərlərimiz kimi, bu dəyəri də unudublar və qadın kimi qeybət eləməklə məşğul olmaqdan, sanki zövq alırlar. Bilmirəm bunu işsiz-gücsüz olmaq, ya tüfeyli həyat sürməklə əlaqələndirək, yoxsa qloballaşma siyasətinin bizə bəxş elədiyi yeni dəyər kimi! Söz yox, kimlərsə yenə ağız büzəcək ki, indiki zamanda belə mental dəyərlərdən danışıb, adamların vaxtını almağa lüzum yoxdur. Amma mən, həm də yəqin ki, mənim kimi çoxları da hesab edirlər ki, biz elə mental dəyərlərimizi unuda-unuda milli kimliyimizə də kölgə salmağa başlamışıq. Milli mentalitetimiz deyir ki, kişi qeybət eləməz, kiməsə deyəcəyi varsa, dediyinin arxasında dura biləcəyinə əmindirsə, buyurub üz-üzə sözünü deyər. Xülasə, "Qulp"çu Mübariz demişkən, keçək mətləbin düz ortasına.

O gün bir az boş vaxtım vardı. Eləmədim tənbəllik, internetə daxil olub, "youtube" portalında gəzişirdim. Birdən gördüm ki, iri şriftlərlə bir yazı var: "XALQ BU İQTİDARDAN QURTULMALIDIR!" Yanında da bir şəkil veriblər. Şəkildə kimləri görsəm, yaxşıdı? AXC hakimiyyəti zamanında baş nazir, müdafiə naziri, daxili işlər naziri, dövlət katibi, kadr məsələri üzrə dövlət müşaviri və s.və il. a. vəzifələri zəbt etmiş köhnə qurdlar. Fikrə getdim ki, görən bunlar deyir ki, bu iqtidardan can qurtaraq? Yenə eləmədim tənbəllik, düyməni basdım həmin yazının üstündən. Vallah, billah, yanılmamışdım. Həmin şəkildə gördüklərim beş-on nəfər də özləri kimi "kişi"ləri yığıblar başına, bu iqtidarın əleyhinə qeybət edirlər ha... Danışdıqlarının hamısı yalan, şər, böhtan, bir də bəzi məmurların xırda-mırda qüsurlarının şişirdilməsindən ibarət idi. Onların dediklərini təkrarlamağa ehtiyac görmürəm. Onsuz da, cəmiyyət "erməni baharı"ndan ruhlanan bu zatsızların nələr danışdıqlarını çox eşidib. Eşidib və doyunca da gülüb. Gülməyib, neyləsin? Afrika ölkələrində soyqırımlar keçirən firənglərin türkləri soyqırımda günahlandırmaları, Hindistanı çapıb-talayan ingilislərin rusları müstəmləkə siyasətində təqsirləndirmələri kimi, bircə illik hakimiyyətləri dövründə Azərbaycanı diz çökdürən, ölkəni "olum-qalım" dilemması ilə üzbəüz qoyan, torpaqlarımızın 20 faizini düşmənə ərməğan edən bu gədələr, hansısa məmurun bir yanlışlığını necə ağız dolusu "müzakirə" edirlərsə, onları tanımasan, deyərsən ki, nə xalqsevər adamlardı bunlar! Zavallılar o qədər qeybət elədilər ki, özləri də bilmədən, dönüb başladılar bir-birlərinin paxırlarını açmağa. Çünki artıq iqtidara bütün qaraları yaxmışdılar və yaxmağa rəng qalmamışdı. Sonra operator cənab bir-bir bu qeybət ustalarını ekrana lap yaxınlaşdırdı. Baxıb gördüm ki, kişi cildində olan bu adamların heç birinin xirtdəyinin ortasında şişmanlıq yoxdu. O zaman anladım ki, bunların hulqumları yoxdur. Hulqumu olmayanlara da, yuxarıda demişdik axı, qeybət eləmək günah sayılmır. Vəssalam!

# XX əsrin 20-30-cu illərində Azərbaycanda erkən evlilik

***Bolşeviklərin və solçu feministlərin 20-30-cu illərdə Rusiyada həyata keçirdikləri "seksual inqilab" layihəsinin SSRİ dövlətinə daxil olan Azərbaycan SSR ərazisində reallaşdırılması mümkün deyildi. Çünki o dövrdə Azərbaycan ərazisində islam dininin və patriarxal ənənələrin təsiri çox güclü idi. Bolşeviklər, müsəlman əhalinin "seksual inqilab" layihəsinə qarşı sərt müqavimət göstərəcəyindən və nəticədə, Rusiyanın müsəlman coğrafiyasında öz geostrateji mövqelərini itirəcəklərindən ehtiyat edirdilər. Buna görə də, müsəlmanların yaşadığı ərazilərdə bu siyasətin başqa bir səviyyədə ehtiyatla həyata keçirilməsi lazım gəlirdi.***

1921-ci ildə Moskvada keçirilən I Ümumrusiya iclasında deyilirdi ki, "Şərqin milli bölgəsində olan qadınlar arasında təbliğat-təşviqat işləri Şərq xalqlarının mədəni və çoxyönlü iqtisadi inkişaf formalarına uyğun şəkildə aparılmalıdır". Bolşeviklər və feministlər müsəlman coğrafiyasında, ilk növbədə, islam dininin və patriarxal ənənələrin təsirinin ortadan qaldırılması, qadınların çarşabdan xilas edilməsi, qadın azadlığı ideyası altında onları ailə-ev işlərindən azad edib, ictimai işlərə cəlb edilməsi istiqamətində fəaliyyət planı hazırladılar. Azərbaycanda və digər müsəlman coğrafiyasında bu işləri idarə edən bolşeviklər və feministlər (K.Radka, E.Armant, A.Kollontay, K.Setkin və s.), həmin işləri daha ifrat bir səviyyədə Rusiya, Ukrayna və digər xristian respublikalarında həyata keçirirdilər.

1921-ci ildə Azərbaycan SSR-ın ilk Konstitusiyasında bütün sahələrdə qadın və kişilərin bərabərliyi barədə qanun (maddə 79) qəbul olundu. Çoxarvadlılıq, erkən evlilik, məcburi nikah halları cinayət hesab edildi və qızlar üçün nikah yaşı 16 yaş təyin edildi.

R.Məmmədov yazır: "Əslində, bu qanunların qəbul edilməsi cəmiyyət üçün müsbət hal idi. Azərbaycan ərazisində 1872-ci ilədək cahil ruhanilərin verdikləri dini fətvaya görə evlilik yaşı qızlar üçün 9, oğlanlar üçün 12 hesab olunurdu. 1872-ci ildən sonra qızlar üçün 13, oğlanlar üçün 15 oldu.

Çoxarvadlılıq, erkən evlilik, məcburi nikah hallarından ən çox narazı olanlar da müsəlman qadınlar idi. Lakin onlar qorxduqları üçün bu hallara qarşı açıq etiraz edə bilmirdilər. 1921-ci il Bakı qurultayına qatılan 1188 qadın nümayəndədən 815 nəfəri Bakıdan olan azərbaycanlı qadınlar idi. Onların əsas şikayətləri 9-12 yaşında qızların ərə verilməsi məsələsi idi.

Müsəlman ölkələrində sosializm sistemini qurmaq üçün, müsəlman qadınlarını yeni sovet sistemi quruculuğuna cəlb etmək lazım idi. Əkstəqdirdə, müsəlman ölkələrində sovet sosialist sisteminin qurulması mümkün olmazdı. Qadınlar patriarxal sistemin çökməsini istəməsəydilər, bolşeviklər öz istəklərinə nail ola bilməzdilər. Çünki ruhanilərin və mülkədarların təhriki ilə kişilər öz ailələrini qorumaq üçün müqavimət göstərəcək və bir araya gələrək, sistemin kök salmasına mane olacaqdılar. Lakin belə olmadı.

Qadınların böyük bir qismi sistemin zülümlərinə dözmədilər və xilas yolunu sosializm sisteminin yaranmasında gördülər. Onların sayı az deyildi və tədricən sayları artırdı. Çünki artıq qadınlar çoxarvadlılıq, erkən evlilik, məcburi nikah, zorakılıq və hüquqsuzluq hallarına tab gətirə bilmirdilər. Onların mövcud sistemə qarşı feminist inqilabına qoşulmaları və sosializmin gerçəkləşməsi prosesinə cəlb olunmaları, əslində, qadınları hər cür hüquqlardan məhrum edən cahil ruhani təbəqəsinin günahı idi. Onlar, islam dininin qadınlara verdiyi hüquqları təmin etsəydilər, Azərbaycanda və digər müsəlman ölkələrində bolşevizmin qələbəsi mümkün olmazdı. Bolşeviklər, patriarxal cəmiyyətlərin zəif nöqtəsinin, məhz qadın məsələsi olduğunu anladıqları üçün, feminizm strategiyası ilə onlara hücum etdi.

20-30-cu illərdə postsovet məkanında, həmçinin, Azərbaycan ərazisində feodalizmdən sosializm sisteminə keçidlə bağlı baş verən fundamental dəyişikliklər, şüurları və həyat tərzlərini sürətlə dəyişməyə vadar edən çox ağrılı proseslər idi. Bunu, boşanma səviyyəsinin ən yüksək olduğu 1935-1943-cü illərin statistikası da təsdiq edir. Biz, bu illərdən əvvəlki statistikaya malik olmadığımız üçün, 1935-1943 illərin statistikasına əsaslanırıq. Lakin əvvəlki illərdən bu proseslərin başladığını və 30-cu illərdə yüksək həddə çatdığını söyləyə bilərik.

Öz acınacaqlı durumundan narazı olan qadınlar Azərbaycanın müxtəlif yerlərində yaradılan qadın klublarına sığınır və orada bir araya gəlirdilər. Bu klublar, onların dərdlərinin müzakirə olunduğu, çıxış yollarının göstərildiyi, hüquqlar uğrunda siyasi mübarizə yollarının başladığı ictimai-siyasi mərkəzlər olmaqla yanaşı, qadınların sosial-iqtisadi müstəqilliyinə şərait yaradan müxtəlif sənətlərin (toxuculuq, xalçaçılıq, əl işi, tətbiqi sənət) və yazıb-oxumağın öyrədildiyi, kitabxanaların və dərnəklərin olduğu (dram, xor, balet), artel və emalatxanaların fəaliyyət göstərdiyi mərkəzlər idi."

Qadın mərkəzləri, qadınların həyatında ailə ilə cəmiyyət arasında körpü rolunu oynayırdılar. Yeni cəmiyyətə açılmaq istəyən qadınlar qadın klublarına gəlir və burada əldə etdikləri bilik və dəstək vasitəsilə cəmiyyətin həyatına yönəlirdilər. Hətta bu klublar uşaqlara təlim-tərbiyə verən ilk bağça funksiyası da daşıyırdılar. Yeni cəmiyyət modeli bu klublarda formalaşırdı. Bu klubların daşıdığı çoxşaxəli funksiyalar tədricən onlardan ayrılaraq, müstəqil fəaliyyət göstərməyə başladılar. 1924-cü ildə Bakıya gələn Klara Setkin bu klublarla tanış olduqdan sonra, onları Şərq qadınlarının inqilabi iradəsinin dayaq nöqtələri adlandırmışdı.

Klara Setkin bu qadınlara müraciətlə yazırdı: "Biz sizinlə birlikdə hiss edirik. Sizin mübarizəniz necə ağırdır və sizə necə böyük qurbanlar vermək lazım gəlir. Ancaq biz görürük ki, sizin azadlıq və iradəniz, sizin bəşəriyyətin azad və mədəni nümayəndələrini tərbiyə etmək cəhdiniz bütün düşmən səylərindən güclüdür. Biz inanırıq ki, siz qalib gələcəksiniz".

İctimai keçid prosesi şüurlarda ənənəvi patriarxal stereotiplərin tədricən ortadan qalxmasına və yeni gender dəyərlərinin davranış normalarına çevrilməsinə səbəb oldu. Bu keçid boşanmaların və ailə cinayətlərinin sayının çox olması təbii idi. Çünki ənənəvi patriarxal stereotiplər çərçivəsində formalaşan kişilər qadınların (qızlarının, həyat yoldaşlarının, bacılarının və s.) işləmələrini özləri üçün faciə hesab edirdilər. Çünki ictimai qınaq buna imkan vermirdi. Bu, ən yaxşı halda boşanmalarla və evdən qovulmalarla nəticələnirdi.

R.Məmmədov yazır: "Cəmiyyətdə baş verən gender transformasiyası qadınların qurtuluşu və inkişafı, həmçinin, cəmiyyətin modernləşməsi üçün çox mühüm bir hadisə idi. Çünki mürəkkəb ailələrdə qadınlar, böyük bir ailənin hüquqsuz bir üzvü kimi, kollektiv ailə təsərrüfatının reproduktiv işçisi və onun əmək qüvvəsini təmin edən ana qismində iştirak edirdilər. Onların bu strukturdan kənarda heç bir yeri və rolu ola bilməzdi. Strukturun daxilində mövcud olan patriarxal iyerarxiya sistemi, onun böyük ailənin baş patriarxının (qayınata) və onun xanımının (qayınana) iradəsinə tabe olmağı vadar edirdi. Kişilər nəsli (əmək qüvvəsini) artırmaq məqsədilə, poliqamik ailə modelini qoruyub-saxlayırdılar. Gələcək əmək qüvvəsi kimi, oğlan övladı dünyaya gətirən qadınların bu strukturda nüfuzu digərlərindən daha çox olurdu. Xüsusilə, erkən evlilik və çoxarvadlılıq qadınların şəxsiyyətinə yönələn ağır zərbə idi. Qadınların bu sistemə qarşı çıxmaları və ona etiraz etmələri mümkün deyildi. Təbii ki, belə bir mühitdə boşanmaların olması da mümkün deyildir (ər evi-gor evi). Bu baxımdan, 20-30-cu illərdə yeni ictimai proseslərlə gələn, gender transformasiyası qadınların həyatında böyük bir irəliləyiş idi."

Qadınlar bütün çətinliklərə baxmayaraq, mübarizə aparırdılar. Onlar deyirdilər: "Kluba gəldik, emalatxana yaratdıq, çadranı çıxardıq, savadsızlıqdan azad olduq, bəs sonra? Başqa qadınlara da kömək etmək lazımdır". Buna görə də, onlar imtahan verərək, kəndlərə yollanır və orada qadınların maariflənmələri istiqamatində fəaliyyət göstərirdilər. Qadınların maarifləndirilməsi işində "Şərq qadını" jurnalı böyük rol oynamışdı.

Əli Bayramlı adına Qadın Klubu 1 il ərzində (1920-1921) 20 min qadını öz ətrafında toplamış və 75 aktivist hazırlamışdı. 1926-1932-ci illərdə 150 min azərbaycanlı qadın kluba cəlb olunmuşdu. Artıq 1927-ci ildə Azərbaycanda 4 min qadın çalışırdı (ümumi işləyənlərin 4,5%-i). 1930-cu ildə kolxozlarda işləyən qadınların ümumi sayı 37%, 1933-cü ildə respublika xalq təsərrüfatında çalışan qadınlarm ümumi sayı 24 % qadınlar dövlət işlərinə və siyasi işlərə cəlb olundu.

1927-ci ilin sonunda Azərbaycanda 14846 nəfər qadın həmkarlar ittifaqının, 2504 nəfər sovetlərin üzvü idi, 3349 nəfər qadın ali və orta məktəblərdə, eləcə də, texnikumlarda təhsil alırdılar. Onlardan bir çoxu rəhbər təsərrüfat və həmkarlar ittifaqı işinə irəli çəkilmişdi.

1929-1931-cu illərdə 324 qadın (əksəriyyəti azərbaycanlı) rəhbər vəzifəyə gətirilmişdi. Azərbaycan SSR-də digər respublikalardan fərqli olaraq, daha çox qadın deputat seçilmişdi.




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

1939-cu il deputat seçkilərində Azərbaycandan seçilən deputatların təqribən 35% (8943) qadın idi. Lakin dindar ailələr, bəy nəsilləri sinfi düşmən kimi ayrı-seçkiliyə məruz qalır və təqib olunurdular.

Çalışan qadınların müəyyən peşə biliklərinə və savada malik olmaları lazım gəlirdi. Bunlar, böyük mübarizənin, praktiki işlərin və fədakarlıqların nəticəsi kimi meydana çıxmışdı. Çünki XX əsrin əvvəllərində Azərbaycan əhalisinin savadsızlıq səviyyəsi 96,7% idi. XIX əsrin sonunda təhsil alan 2237 qadından cəmi 20 nəfəri azərbaycanlı idi. Əhalinin savadı 1926-cı ildə 18,5% idisə, 1939-da 73,3%-ə qalxdı. Qadınlar arasında savad 1926-1939-cu illərdə 3,1%-dən 54,7%-ə yüksəldi.

1920-ci ildən başlayaraq, Azərbaycan, SSRİ dövlətinə daxil olmaqla, sürətlə sosializm quruculuğu sisteminə keçid etmişdir. Bu dövrdə "qadın azadlığı" və qadınların hüquqlarının təmin olunması adı altında, onların ucuz əməyindən yararlanmaq məqsədilə evdən təhsilə, ictimai işlərə və sənayeyə cəlb olunması prosesi başladı. Ucuz ictimai iaşə mərkəzlərinin, pulsuz uşaq bağçalarının açılması da qadınların evdən sosial həyata cəlb olunmalarını təmin etmək üçün şərait yaratdı.

Qadınların istehsala və cəmiyyətin həyatına qatılmalarını təmin etmək üçün, uşaq bağçaları və məişət xidmətlərinin sayı artırıldı. Bakıda 1927-ci ildə 21 bağçada 1278 uşaq, 1940-cı ildə 236 bağçada 19 min uşaq (40% azərbaycanlı) tərbiyə olunurdu. Gəncə uyezdində isə, 1927-ci ildə 607 bağçada 22.400 uşaq var idi. Lakin bağçalarda şərait çox bərbad olduğu üçün, qadınlar ora öz şəxsi hesabları və fədakarlıqları ilə yardım edirdilər. İctimai iaşə sektoru da inkişaf edirdi. 1933-cu ildə 1268, 1940-cı ildə 2.308 oldu. Əgər 1930-cu ildə işləyən ailəli qadın ev işlərinə həftədə 40 saat sərf edirdisə, 1963-cü ildə bu - 29,8 saat təşkil edirdi.

1929-cu ildə AK(b)P MK prezidiumu çadra geyimini qadağan edən qərar qəbul etdi. Kişilərə isə, papaqla kinoteatr və digər mədəni yerlərdə gəzmək qadağan edildi. 1928-ci ildə 12573 nəfər, 1929-cu ildə isə, 20387 nəfər qadın çadranı atdı. Sonrakı illərdə bu rəqəm daha da çoxalmışdı. Xatırladırıq ki, 1917-ci ildə Bakıda Zaqafqaziya Müsəlmanlarının Qurultayına bir qrup çadrasız və üzüaçıq qadın gələrək, orada çıxış etmişdir. Qurultayda iştirak edən ruhanilər qrupu hiddətlənərək, zalı tərk etmişlər. Onlar, o gündən etibarən cəmiyyəti ayağa qaldırmağa müvəffəq olmuşlar. Bunlar göstərirdi ki, cəmiyyət qadınların çadranı atmalarına çox sərt yanaşır. Çünki həmin dövrlərdə əhalinin sıx yaşadığı yerlərdə qadınların əsas geyim forması çadra idi. Kənd yerlərində çadra deyil, yaşmaq bağlanırdı. Buna görə də, 1929-cu ildə çadra geyiminə qoyulan qadağa, kişilərin ayağa qalxmalarına səbəb oldu. Kişilər fəal qadınları sevmir, onları təhqir edir və ərləri onları boşayırdılar. Bu dövrdə qadınlara qarşı zorakılıq halları, boşanmalar yüksək olmuş və etirazlar baş qaldırmışdı.

***Vahid Ömərov,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***

səs

Son səhifə 2 iyul



# AzerTelecom-un rəhbəri Biznes Forumda "Azerbaijan Digital HUB" proqramından danışıb



Azərbaycanı beynəlxalq internet şəbəkəsinə bağlayan magistral (backbone) internet provayder şirkəti AzerTelecom şirkətinin baş icraçı direktoru Fuad Allahverdiyev İsveçrənin Sürix şəhərində keçirilmiş İsveçrə-Azərbaycan Biznes Forumunda "Azərbaycanda rəqəmsallaşma prosesləri və "Azerbaijan Digital HUB" proqramının bu proseslərə töhfəsi" mövzusunda çıxış edib.

Fuad Allahverdiyev çıxışında dördüncü sənaye inqilabı şəraitində rəqəmsallaşma proseslərinin Azərbaycanda da sürətlə getdiyini, ölkə başçısı cənab Prezident İlham Əliyev tərəfindən İKT sektorunun dayanıqlı inkişafı istiqamətində müxtəlif Dövlət Proqramları, Sərəncam və Fərmanların qəbul edildiyini qeyd edib.

O "AzerTelecom" şirkətinin hazırda icra etdiyi "Azerbaijan Digital HUB" proqramı barədə məlumat verərək bu proqramın ölkənin İKT, telekommunikasiya sektorunun inkişafı, rəqəmsallaşma proseslərinə mühüm töhfə verəcəyini bildirib. ""Digital HUB" proqramı ölkə daxilində dayanıqlı infrastruktur quruculuğunu, Avropa ilə Asiya arasında rəqəmsal telekommunikasiya dəhlizinin (Rəqəmsal İpək Yolu) yaradılmasını, Transxəzər magistralının çəkilişini, ölkəmizdə regional Data Mərkəzin tikintisini və Azərbaycanın Qafqaz, MDB, Orta və Cənubi Asiya, Yaxın Şərq və ətraf regionlar üçün Regional Rəqəmsal Mərkəzə çevrilməsini və rəqəmsal ekosistemin formalaşmasını nəzərdə tutur" - deyə Fuad Allahverdiyev bildirib.

Qeyd olunub ki, "Digital HUB" proqramı Avropa və Asiya ölkələri arasında əməkdaşlıq əlaqələrinin qurulmasına xidmət edəcək, iki qitənin müxtəlif dövlətlərinin telekommunikasiya və kontent operatorlarının əməkdaşlığı, biznes əlaqələrinin daha da genişlənməsi üçün təməl olacaq. Azərbaycan bu proseslərdə mərkəzi ölkəyə çevriləcək və proqram çərçivəsində rəqəmsal telekommunikasiya dəhlizinin qurulması bir çox ölkələrdə rəqəmsallaşma proseslərinin sürətlənməsinə töhfə verəcək. İsveçrə-Azərbaycan Biznes Forumu İsveçrə Konfederasiyasının Sürix şəhərində İqtisadiyyat Nazirliyinin dəstəyi, Azərbaycan Respublikasının İsveçrə Konfederasiyasındakı Səfirliyinin və Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun təşkilatçılığı ilə iyunun 27-də keçirilib.

"AzerTelecom" Azərbaycanın, ümumilikdə isə Cənubi Qafqaz regionunun ən iri telekommunikasiya operatorlarından biridir və ölkənin ilk mobil operatoru və ən sürətli mobil internet provayderi olan "Bakcell" şirkətinin törəmə müəssisəsidir. "AzerTelecom" 2008-ci ildə təsis edilib və telekommunikasiya sektorunda yerli və xarici şirkətlərə müxtəlif qabaqcıl xidmətlər təqdim edir. "AzerTelecom" hazırda Azərbaycanın sahib olduğu Enerji və Nəqliyyat Mərkəzi statuslarına əlavə olaraq ölkənin Regional Rəqəmsal Mərkəzə çevrilməsi üçün "Azerbaijan Digital Hub" proqramını icra edir. Proqram Azərbaycanın Milli IT və Milli İnnovasiya strategiyası üçün mühüm təməl yaradır və rəqəmsallaşmanın sürətlənməsinə, rəqəmsal iqtisadiyyata çevik transformasiyaya, start-apların, İT arxitekturasının inkişafına mühüm töhfə verəcək. Proqram ölkənin İKT sisteminin ən qabaqcıl dünya standartları səviyyəsinə çatdırılması, ölkənin beynəlxalq reytinqlərdə daha öncül sıralara çıxmasına şərait yaradacaq.

## ELAN

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Coğrafiya müəllimliyi ixtisası üzrə II kurs tələbəsi İmanlı Cəmal Mürşüd oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

# UNEC-də Məzun günü - Bakalavr və magistrlərə Avropa universitetlərinin diplomları verildi

***UNEC-də keçirilən "Məzun Günü" bir çox yeniliklərlə yadda qalıb. "Baku Kristall Hall"da keçirilən təntənəli mərasim Dövlət Himninin səsləndirilməsi ilə başlayıb. Tədbirdə universitetin rəhbərliyi, professor-müəllim heyəti, məzunlar və valideynlərlə yanaşı, dövlət rəsmiləri, millət vəkilləri, xarici qonaqlar, ictimaiyyət nümayəndələri və UNEC-in fəxri məzunları iştirak edib.***




UNEC-in rektoru, professor Ədalət Muradov məzunları təbrik edərək, onlara müstəqil, peşəkar həyata baş vurmağın çətin olduğu qədər, maraqlı və həyəcanlı olduğunu deyib. Məzunları yeni nailiyyətlər, ciddi sınaqların gözlədiyini deyən rektor, onların əməyinin müsbət nəticələr verəcəyinə əminliyini bildirib. Bu əminliyin Ümummili lider Heydər Əliyevin müəyyənləşdirdiyi və bu gün də Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən gənclərin təhsili ilə bağlı dövlət siyasətinə, eləcə də Mehriban xanım Əliyevanın təhsilə diqqət və qayğısına əsaslandığını vurğulayıb. UNEC-in Avropanın aparıcı universitetləri ilə uğurlu ikili diplom proqramları reallaşdırdığını deyən Ə.Muradov, bu ali təhsil müəssisəsinin məzunlarının dünyanın aparıcı universitetlərinin tələbələri ilə rəqabət apara biləcək potensiala malik olduğunu bildirib. Sonda rektor məzunlara dayanmadan çalışmağı, biliklərini yeniləməyi, mənəviyyatı hər şeydən üstün tutmağı və mənəvi lider olmağı tövsiyə edib.



Tədbirdə Azərbaycan Dövlət İqtisad Universitetindən məzun olan Dövlət Miqrasiya Xidmətinin rəisi Vüsal Hüseynov barədə videoçarx nümayiş olunub. Videoçarxda V.Hüseynovun orta məktəb şəhadətnaməsi, universitet diplomu, qiymət cədvəli, fotoşəkilləri və ictimai siyasi fəaliyyəti ilə bağlı məlumatlar əks etdirilib.

DMX-nin rəisi Vüsal Hüseynov xatirələrlə zəngin təqdimata görə universitet rəhbərliyinə təşəkkürünü bildirib. UNEC-in Fəxri məzunu kimi uğur hekayəsini bölüşən V.Hüseynov İqtisad Universitetinin onun həyatında önəmli rol oynadığını deyib. Harvard Universitetinə gedən yolda bu ali təhsil müəssisəsinin çox vacib təməl olduğunu diqqətə çatdırıb. V.Hüseynov UNEC məzunlarına verdikləri universitetin onlara verdiyi üstünlüklərdən maksimum yararlanmağı, qərarlarında məsuliyyətli olmağı, bilik və bacarıqlarını daim inkişaf etdirməyi tövsiyə edib.

Çıxışdan sonra UNEC-in Fəxri məzunu Vüsal Hüseynova şəxsi arxivi üçün orta məktəb şəhadətnaməsi hədiyyə olunub.

"Məzun Günü"ndə UNEC-in ikili diplom proqramlarının məzunlarına Avropa diplomları təqdim edilib. Fransanın Monpelye Universitetini bitirən 13 bakalavr və İsveçrənin UBİS universitetini bitirən 4 magistrə həmin universitetlərin diplomları verilib.



Hər il olduğu kimi, bu il də ən yüksək bal (99.0125) topladığına görə adı UNEC-in Fəxri daşına həkk edilən Beynəlxalq İqtisadiyyat Məktəbinin məzunu Pakizə Vəlizadə çıxış edib. UNEC-in məzunu olması ilə qürur duyduğunu ifadə edən P.Vəlizadə təhsil aldığı Beynəlxalq İqtisadiyyat Məktəbinin tələbələrinin artıq 5-ci ildir ki, adlarını universitetin tarixinə uğurlu tələbə kimi yazdırdıqlarını diqqətə çatdırıb.

P.Vəlizadə ənənəyə uyğun olaraq UNEC-in bayrağını III kurs üzrə ən yüksək nəticə göstərən Ekspertiza və standartlaşdırma fakültəsinin tələbəsinə təhvil verərək, 4122 məzun adından təntənəli and içib.

Sonra ənənəvi "papaqatma" mərasimi keçirilib. Tədbirdə populyar bəstəkar müğənni, əməkdar artist Miri Yusif və Murad Arif tələbələri məzun olmaları münasibətilə təbrik edərək, özünəməxsus ifaları ilə onlara unudulmaz anlar yaşadıblar. Populyar DJ Chına isə dinamik mahnıları ilə "Məzun Günü"ndə gəncləri əyləndirib. Qeyd: 2018/19-ci tədris ilində UNEC-dən 4122 gənc məzun olub. Onlardan 3102-i bakalavr, 1020-si isə magistrdir.

*Baş redaktor:*

**Bəhruz Quliyev**

*Baş redaktorun müavinləri:*

**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur

*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 4600**